www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu   Gündəlik qəzet   23 iyun 2023-cü il   Cümə   № 109 (8245)   Qiymətı 60 qəpik

**Xəbər**

## Qurban bayramı ilə bağlı fətva verildi

yazısı səh.11-də

**Gündəm**

### Üç rayonda baş verənlər...



İcra hakimiyyətlərinin ləğvi yenə gündəmdə

yazısı səh.5-də

### Bayramov və Mirzoyan gələn həftə görüşəcək

yazısı səh.4-də

### İrandakı edam kötükləri BMT-nin hesabatında

yazısı səh.14-də

### İrəvan indi də üçtərəfli sənədin 9-cu bəndinə qarşı

yazısı səh.8-də

### Avropa Birliyi regiona yeni "revizor"lar göndərir - müəmmalı qərar

yazısı səh.9-də

### Elmar Məmmədyarovun səfir olmaq istəyinə "yox" cavabı

yazısı səh.3-də

### "Laçın blokadasını" yarmaq üçün Avropadan gəldi

yazısı səh.13-də

### Erməni diversantların məhkəməsi - onları hansı ağır cəza gözləyir?

yazısı səh.10-da

### Qərbin Azərbaycanda dinlə bağlı məkrli planları

yazısı səh.14-də

### İdlibdə döyüşmüş azərbaycanlılar həbs edildi

yazısı səh.2-də

### Ərzaqla təminatda idxaldan asılılıq əsassız bahalaşmaya haqq qazandırır?

yazısı səh.15-də

# ABŞ-I NAXÇIVAN SƏRHƏDİNƏ GƏTİRƏN İLGİNC SƏBƏBLƏR - BAKI İLƏ MOSKVAYA MESAJ...

İrəvan bununla Rusiyadan incikliyini bir daha bəyan edərək, özünə daha etibarlı müttəfiq tapmasının mesajını verir; həmçinin ermənilər düşünürlər ki, Kərki də daxil, Azərbaycan kəndlərinin təhvil verilməsindən ABŞ bayrağı ilə yayına bilərlər

yazısı səh.4-də




# Hökumət komissiyası "Gədəbəy düyünü"nü aça biləcəkmi?

Komissiya süni gölə baxış keçirdi; ilkin araşdırmanın nəticələri açıqlandı

yazısı səh.7-də



### Sərgən Yalçın 500 min dollara görə "Neftçi"də işləmədi

yazısı səh.3-də



### Eldar Mahmudovun kabinetində itən 2 qızıl keçi-sensasion təfərrüat

yazısı səh.12-də



*Əli Məsimli:*

### "Yeni komandada çox təhlükəli tendensiya var"

yazısı səh.5-də

yazısı səh. 8 və 9-da

**Elan:**

**07.05.2020-ci il tarixdə 1121-P1-0059 nömrə ilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən dövlət qeydiyyatına alınmış Cümhuriyyət Xalq Partiyası (CXP) ləğv olunduğunu elan edir.**

**Kreditorlardan xahiş olunur ki, bu elan dərc olunduqdan sonra 60 gün ərzində quruma olan tələblərini aşağıda göstərilən ünvana bildirsinlər: Bakı şəhəri, C.Naxçıvanski küçəsi, ev 3, mənzil 50.**

***

**11.12.1998-ci il tarixdə 32 nömrə ilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən dövlət qeydiyyatına alınmış Sosial Ədalət Partiyası ləğv olunduğunu elan edir.**

**Kreditorlardan xahiş olunur ki, bu elan dərc olunduqdan sonra 60 gün ərzində quruma olan tələblərini aşağıda göstərilən ünvana bildirsinlər: Bakı şəhəri, Y.Məmmədəliyev küçəsi, 9, mənzil 13/15.**

## İdlibdə döyüşmüş azərbaycanlılar həbs edildi



**Dövlət Təhlükəsizliyi Xidmətində aparılmış araşdırmalar nəticəsində ölkə hüdudlarından kənarda terror aktlarının törədilməsi ilə müşayiət olunan, dini düşmənçilik, dini radikalizm və dini fanatizm zəminində aparılan silahlı münaqişələrdə iştirak edən Azərbaycan vətəndaşları saxlanılıb. Onlar qeyri-leqal yollarla Suriyanın İdlib şəhərində "Taifatul Mansura" adlı qanunsuz silahlı dəstənin tərkibində döyüşlərdə iştirak ediblər və barələrində beynəlxalq axtarış elan edilib.**

Dövlət Təhlükəsizliyi Xidmətindən verilən məlumata görə, başlanılmış cinayət işi üzrə 13 nəfər Azərbaycan Respublikası vətəndaşının - Abdullayev Şəmil Töhüd oğlu, Ağamətov Murad Əlibala oğlu, Quliyev Murad Firudin oğlu, Rüstəmov Fərhad İsə oğlu, Sultanov Sultan İdris oğlu, Hüseynov Nəcməddin Nəzir oğlu, Mahmudov Hikmət Sahib oğlu, Əliyev Mais Telman oğlu, İsmayılov İsmayıl Aydın oğlu, Babayev Şəhriyar Rahim oğlu, Muradov Hacı Arif oğlu, Baxışov Əlövsər Əlisafa oğlu və Əsədov İntiqam Şirin oğlunun xarici ölkə ərazisində gizləndikləri yerlər müəyyənləşdirilib və onlar beynəlxalq axtarışa dair qarşılıqlı hüquqi yardım proseduru çərçivəsində müvafiq tədbirlərlə saxlanılaraq Azərbaycan Respublikasına gətiriliblər.

Sözügedən şəxslər Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 283-1.3-cü (Azərbaycan Respublikasının hüdudlarından kənarda silahlı münaqişələrdə iştirak etmək məqsədilə sabit qruplar yaratma, həmin qruplarda, təlimlərdə və ya silahlı münaqişələrdə iştirak etmə) maddəsi ilə təqsirləndirilən şəxs qismində cinayət məsuliyyətinə cəlb olunaraq, məhkəmənin qərarı ilə barələrində həbs-qətimkan tədbiri seçilib.

## Zelenskidən Azərbaycana təşəkkürlər

**Azərbaycanın Ukraynada yeni təyin olunmuş səfiri Seymur Mərdəliyev etimadnaməsini prezident Volodimir Zelenskiyə təqdim edib.**

Ukrayna Prezidentinin Ofisi xəbər verir ki, səfir Seymur Mərdəliyevi Ukraynada diplomatik fəaliyyətə başlaması münasibətilə təbrik edən Zelenski Azərbaycanın Ukraynanın ərazi bütövlüyü və suverenliyinə verdiyi dəstəyə görə minnətdarlığını bildirib.

O, Azərbaycan Prezidenti İlham Əliyevə ən səmimi təbriklərini çatdırıb və onların Kişineudakı son görüşlərinin məhsuldar keçdiyini, qarşılıqlı maraq doğuran bir çox məsələləri müzakirə edə bildiklərini qeyd edib: "Xüsusilə biz Azərbaycanın İrpen şəhərinin bərpasında iştirakına razılaşdıq".

"Bizim komandalarımız artıq bu sazişin həyata keçirilməsi üzərində işləyir. Bu, Ukraynanın müharibədən sonrakı bərpasına konkret töhfə olacaq", - deyə dövlət başçısı vurğulayıb.

# Azərbaycanın idxalda MDB ölkələrindən asılılığı niyə artır?




**Azərbaycanın bu ilin yanvar-may aylarında MDB ölkələrinə ixracı 641,9 milyon ABŞ dolları dəyərində olub. Dövlət Gömrük Komitəsinin verdiyi məlumata görə, bu, illik müqayisədə 82,5 milyon dollar və ya 11,3% azdır. Hesabat dövründə MDB ölkələrindən idxal 2 milyard dollar təşkil edib ki, bu da illik müqayisədə 59,4 milyon dollar və ya 39,5% çoxdur. Azərbaycanın idxalda MDB ölkələrindən asılılığı niyə artır?**

Mövzu ilə bağlı **iqtisadçı-ekspert Eyyub Kərimli** "Yeni Müsavat"a dedi ki, bu asılılıq təbiidir: "Çünki MDB ölkələri bizim qonşu ölkələrimizdir. Burada nəqliyyat xərclərinin az olması və məhsullar üzrə ƏDV-dən azad olma, həm MDB-dən idxal olunan məhsulların ucuz başa gəlməsinə səbəb olur. Digər tərəfdən, bizim əsas ticarət tərəfdaşımız Rusiyadır. Rusiyadan biz böyük miqdarda məhsullar, materiallar idxal edirik. Burada tikinti materialları, taxılı misal çəkmək olar. Biz taxılı Qazaxıstandan və Ukraynadan idxal edirik. Hesab edirəm ki, bu idxalın artması ümumilikdə iqtisadi dövriyyənin artması ilə və iqtisadi inkişafla əlaqədardır. Bu bir təbii artımdır. Qeyd olunduğu kimi, MDB ölkələrinə ixrac azalıb. Builki göstəricilərə əsasən ikinci yerdə Türkiyə bizim ixracat tərəfdaşımız sayılır. Əvvəllər bu, Rusiya idi. Bu da başadüşüləndir. Bilirsiniz ki, Rusiyada embarqo ilə əlaqədar iqtisadi vəziyyət gərginləşir, alıcılıq qabiliyyəti aşağı düşür. Bu da ixraca mənfi təsirini göstərir. İqtisadi əlaqələrdə təbii haldır ki, yaxın qonşulardan hansısa məhsulları əldə edə biliriksə, bunu uzaqdan gətirməyin mənası yoxdur. Çünki nəqliyyat, magistral daşıma və yükdaşıma qiymətlərinə mənfi təsir göstərə bilər".

❑ **Afaq MİRAYİQ, "Yeni Müsavat"**




## Kadi "Krasnodar"dan ayrılır?

**Helsio Alisk agenti olduğu "Krasnodar"ın futbolçusu Kadi Borgesin klubdakı gələcəyini şərh edib.**

Qol.az xəbər verir ki, braziliyalı yarımmüdafiəçisi yanvarda "Qarabağ"dan "Krasnodar"a keçib və klubu ilə 2026-cı ilin iyununa kimi müqavilə imzalayıb.

H.Alisk "Sport ekspress"ə açıqlamasında deyib: "Kadinin "Krasnodar"la müqaviləsi var. O, bu klubda olmaqdan xoşbəxtdir. Şəhərin özünü də bəyənir. Kadinin klubu tərk etmək şansı nə qədərdir? O, "Krasnodar"da oynamağa davam edəcək".

Qeyd edək ki, 27 yaşlı futbolçu ötən mövsüm Rusiya təmsilçisinin heyətində 11 oyuna çıxıb, 3 qol vurub və 1 qolun ötürməsini verib.

## MİDA-nın budəfəki onlayn satışında neqativ hallar yaşanacaqmı?

**İyulun 29-da Mənzil İnşaat Dövlət Agentliyi (MİDA) yeni onlayn satış həyata keçirəcək. 1200-dək mənzil onlayn satışa çıxarılacaq. Onu da əlavə edək ki, müvafiq dəyişikliklə jurnalistlər də MİDA-dan ev qazana biləcək.**

Qeyd edək ki, MİDA bir neçə dəfə bu cür onlayn satış keçirib və hər dəfəsində satışın şəffaflığı ilə bağlı narazılıqlar olub. Bəs bu dəfə də neqativ hallar yaşanacaqmı?

Mövzu ilə bağlı əmlak məsələləri üzrə ekspert Elnur Fərzəliyev "Yeni Müsavat"a danışıb:

"Ümumiyyətlə, əmlak bazarında ev alıcıları müxtəlif kateqoriyalara bölünür. Nağd alıcılar - bahalı müştərilər, mənzili yatırım kimi alanlar, məsələn, köhnə, sökülmək üzrə olan binalarda mənzillər alırlar ki, yenisi tikilsin, həmçinin sosial layihələrlə mənzil alan şəxslər.

MİDA-dan ev almaq hər kəsə şamil olunmur, bura müəyyən kateqoriyaları insanlar, məsələn, hərbiçilər, müəllimlər və sairə daxildir. Onların əmlak bazarında rolu elə də böyük deyil. Əmlak bazarında rolu böyük olanlar nağd müştərilər və ipoteka kreditləridir.

Təbii ki əsas məsələ odur ki, insanların ev problemi həll olunur. Yəni kirayədə qalanlar artıq öz mənzillərində yaşayacaq. Bu günə qədər MİDA vasitəsi ilə yüzlərlə vətəndaşlara mənzil satılıb. Bu da o deməkdir ki, evə ehtiyacı olan yüzlərlə insanın ev problemi həll olunub.

Amma zamanla bu prosesdə çox ciddi problemlər olmuşdu. Yəni qısa zaman ərzində evlərin satışı və yaxud həmin kateqoriyadan olmayan insanların ev ala bilməsi və sairə. Təbii ki, arzu edirəm ki, artıq yeni satış zamanı bu cür faktlar baş verməsin, haqqı olan insanlar ev alsınlar. Yatırım kimi mənzil alan adamlar digər ərazilərdən də ala bilərlər.

MİDA-nın daşınmaz əmlak bazarında payı o qədər də çox olmasa da, onun satışa çıxardığı mənzillərin qiyməti çox ucuzdur. Məsələn, onun Yasamal rayonunda, Şərifzadə küçəsində yerləşən binalardakı mənzillərinin qiyməti həmin ərazilərdə yerləşən yeni tikili binaların mənzillərin qiymətindən xeyli ucuzdur. Şərifzadə küçəsində yerləşən yeni tikili binalarda təmirli mənzilin ortalama kvadratı 2000 manatdır. Yəni MİDA-nın mənzillərinin qiymətinin yarısı qədər bahadır".

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**

**Elan**

**HN-in Tibb Xidməti Xüsusi həkim ekspertiza komissiyasının həkim-nevropatoloqu, tibb xidməti mayoru Nur Ləman Ziyafət qızına məxsus xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.**

## Varlı ölkələrin reytinqi

**ABŞ-ın "Global Finance" jurnalı 193 ölkəni adambaşına ümumi daxili məhsul göstəricisi üzrə sıralayıb. Hesablama alıcılıq qabiliyyəti pariteti (ölkələrdə mal və xidmət səbətinin dəyəri) əsasında aparılıb.**

Novator.az bildirir ki, "Global Finance" varlı ölkələr reytinqinin ilk üçlüyündə İrlandiya, Lüksemburq və Sinqapuru göstərir.

ABŞ 9-cu, Almaniya 19-cu, Fransa 29-cu, İtaliya 34-cü, Yaponiya 38-ci pillədə yer alır.

Litva 42-ci, Estoniya 43-cü, Türkiyə 53-cü, Latviya 54-cü, Rusiya 60-cı, Qazaxıstan 61-ci, Belarus 76-cı, Gürcüstan 79-cu, Türkmənistan 82-ci, İran 84-cü, Ermənistan 85-ci, Azərbaycan 92-ci, Moldova 98-ci, Ukrayna 111-ci, Özbəkistan 127-ci, Qırğızıstan 145-ci, Tacikistan 149-cudur.

## Ali Məhkəmənin qərarlarından şikayət məhdudlaşdırılır

**Milli Məclisə "Konstitusiya Məhkəməsi haqqında" qanunda dəyişikliklər layihəsi daxil olub. Novator.az bildirir ki, əsas təkliflərdən biri Ali Məhkəmənin qərarları üzrə işlərə baxılmasını məhdudlaşdırır.**

Azərbaycan Konstitusiyasına görə, Konstitusiya Məhkəməsinin Ali Məhkəmənin qərarlarının konstitusiyaya və qanunlara uyğunluğunu yoxlamaq səlahiyyəti də var. "Konstitusiya Məhkəməsi haqqında" Qanuna təklif olunan yeniliyə əsasən, insan hüquqları üzrə müvəkkilin (ombudsmanın) bu məsələyə dair sorğusuna sorğu verilən qərarın konstitusiyaya və ya qanunlara uyğun olmayan normativ hüquqi akta əsaslandığı hallarda yol verilir. Paralel təklifə görə, Konstitusiya Məhkəməsi belə şikayətə şikayət edilən qərarın konstitusiyaya və ya qanunlara uyğun olmayan normativ hüquqi akta əsaslandığı hallarda baxa bilər.

Konstitusiya Məhkəməsi 9 hakimdən ibarətdir. Onları prezidentin təqdimatı ilə Milli Məclis təyin edir. Qurumun əsas missiyası qanunların, prezidentin fərman və sərəncamlarının, Milli Məclisin qərarlarının, Nazirlər Kabinetinin qərar və sərəncamlarının, mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının konstitusiyaya uyğunluğunu yoxlamaqdır.

# SEPAH-ın "Azərbaycan gələcək Ukraynadır" xülyası

## Terrorçuları maliyyələşdirən qurumun təhdidləri həmişə olduğu kimi, yenə də quru sözdən uzağa gedə bilməyəcək




**İranın SEPAH terror qruplaşmasına bağlı "İRGC" teleqram kanalı Azərbaycanı müharibə ilə təhdid edib. Bu barədə "Təbriz Turan TV" Teleqram kanalı məlumat yayıb. "İRGC" kanalı Azərbaycan xəritəsini "Gələcək Ukrayna" başlığı ilə yayımlayıb.**

Bundan əvvəl İranın daxili işlər naziri Əhməd Vahidi Azərbaycan sərhədində ölkəmizə qarşı təhdid və istehzalar səsləndirib. Son günlər İran mətbuatında da Zəngəzur dəhlizinin açılması əleyhinə, Ermənistan və Qarabağdakı qondarma rejimə yardım çağırış yazıları geniş vüsət alıb.

Qeyd edək ki, Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla İranın xarici işlər naziri Hüseyn Əmir Abdullahian arasında bir neçə telefon danışığı baş tutub. Tehrandakı səfirliyimizə hücumdan sonra hər iki ölkənin nazirləri arasında yeganə əlaqə vasitəsi telefondur və bir neçə dəfə belə təmas qurublar, ancaq münasibətlərin normallaşmasına müsbət təsir etməyib. Ekspertlərə görə, İranda siyasi qərarları Xarici İşlər Nazirliyi vermir. İranda Azərbaycanla bağlı qərarları güc strukturları - İran İslam Keşikçiləri Korpusu və ona aid strukturlar verirlər. SEPAH-a bağlı kanalda son təhdid də buna sübutdur. Onlar qərar vermədən İran Xarici İşlər Nazirliyi istəsə belə münasibətləri normallaşdıra bilməyəcək. Yanvarın 27-də Azərbaycanın İrandakı səfirliyinə hücumu da SEPAH-ın təşkil etdiyi şübhə doğurmur.

**Mövzu ilə bağlı millət vəkili Sabir Rüstəmxanlı "Yeni Müsavat"a danışıb. Millət vəkili qeyd edib ki, Azərbaycanın güclənməsi, Qarabağ məsələsinin həlli, ölkəmizin bölgədə xüsusi bir dövlətə çevrilməsi İranı narahat edir:** "İran Azərbaycana özünün şimal torpaqları kimi baxır, amma biz də İrana türklərin İranı kimi baxırıq. İranda yaşayan dostlarımız da bildirir ki, İranın elə bir bölgəsi, kəndi yoxdur ki, orada türk yaşamasın. Yəni İran əslində tarix boyu, son min ildə türklərin İranıdır. İranda fars hegemonluğu Pəhləvi rejimindən sonra başlayıb. İndi də İranın rəhbərliyinin bir hissəsi Azərbaycan kökənli insanlardır. Ona görə də İran nə qədər bu cür bəyanatlar versə də, bu ciddi səslənmir. Çünki İran bu halda öz əhalisini özünə qarşı qaldırar. Azərbaycan millətini özünə qarşı vuruşdurmayacaq ki... İran rejimi bunu xəyalında tuta bilər, amma getsin Güney Azərbaycanı gəzsin, dolaşsın, görsün millət buna izn verər, ya yox?

Ümumiyyətlə, İran Azərbaycana qarşı niyə müharibə etməlidir? Sərhədləri pozmuruq, qonşuluq münasibətlərinə xələl gətirən bir addım atmırıq. Amma 30 il Azərbaycan torpaqlarını erməni ilə birgə dağıdan, maddi mənəvi dəyərlərini, abidələrini məhv edən, hətta müqəddəs yerlərimizi ermənilər ilə qarət edən bir ölkənin nə haqqı var müharibədən danışsın? Beləliklə, mən bu təhdidlərə o qədər də ciddi baxmıram. Güman edirəm ki, illər uzunu İranın apardığı söz siyasətindən başqa bir şey deyil".

**Politoloq Qabil Hüseynli də SEPAH-a bağlı kanalda Azərbaycanın müharibə ilə təhdid olunmasına münasibət bildirib:** "Çox zaman siyasi şərhçilər belə hesab edir ki, İranda ikihakimiyyətlilikdir. Birinci - qanuni seçilmiş hakimiyyət, ikincisi -İran İslam Keşikçiləri adı altında gizlənmiş silahlı SEPAH. Üstəlik, SEPAH-ın dedikləri bəzən qanuni hakimiyyətin dediklərini üstələyir və əsas SEPAH-ın mövqeyi götürülür.

SEPAH İslam İnqilabının həm keşikçisi, həm də konstitusiya ilə İslam inqilabı ideyalarının "ixracı" ilə məşğul olan bir təşkilatdır. Guya matah bir şey, dini şəriət rejimi yaradıblar. SEPAH faktiki olaraq ölkədə Müdafiə Nazirliyinin, həmçinin Xarici İşlər Nazirliyinin bir sıra səlahiyyətini öz üzərinə götürüb, beləliklə, dövlət içərisində "dövlət" kimi fəaliyyət göstərir".

**Politoloq xatırladıb ki, SEPAH-ın Azərbaycanı təhdid etməsi birinci dəfə deyil:** "Məlum olduğu kimi, SEPAH Azərbaycanı dəfələrlə təhdid edib. Ümumiyyətlə, SEPAH çox başıpozuq, həddindən artıq korrupsiyalaşmış bir hərbi qruplaşmadır. Xaricdəki bütün terror təşkilatlarını SEPAH maliyyələşdirir. Məsələn, "Hizbullah", buna bənzər digərləri, Yəməndəki silahlı qruplaşmaları və sairə, hamısını idarə edən, onlara maliyyə yardımı, silah göndərən SEPAH-dır. Bu mənada SEPAH həm təhlükəli, həm də çox korrupsiyalaşmış bir təşkilatdır. Həmçinin hərbi təşkilat olsa da, ciddi kommersiya işləri ilə məşğul olur.

Bu mənada SEPAH-ın Azərbaycanın ünvanına səsləndirdiyi təhdidləri təəccüblə qarşılamaq, eyni zamanda onu ciddiyə də almaq lazım deyil. Çünki SEPAH artıq dünyada terrorçu təşkilat və yaxud terroru maliyyələşdirən bir qurum kimim tanınır. Hətta son çıxışlarda inqilabçılar SEPAH-ın bir qurum kimi ləğv edilməsi məsələsini irəli sürmüşdülər. Hakimiyyətin islahatçıları da SEPAH-ın artıq bir qurum, dövlət içərisində "dövlət" kimi olduğunu, üstəlik, dövlətin idarə sisteminə maneçilik törətdiyini qeyd edirlər.

Bir sözlə, bu qurum dövlətin siyasi xəttinə uyğun olan fikirlər söyləmir, onun dediyi fikirlər yalnız özünə aiddir. Ona görə də onun Azərbaycanla bağlı təhdidləri də həmişə olduğu kimi, bu dəfə quru sözdən uzağa gedə bilməyəcək".

❑ **Xalidə GƏRAY,**
❑ **"Yeni Müsavat"**

## İrəvandan Tehrana yeni aviareys açılır

**Ermənistandan İrana yeni aviareys açılır. "Armenpress"ə xəbər verir ki, Ermənistanın milli aviadaşıyıcısı "Fly Arna" şirkəti İrəvan-Tehran marşrutu üzrə uçuşa başlayıb. Məlumata görə, uçuşlar 2023-cü il iyulun 11-dən həftədə 2 reys tezliyi ilə həyata keçiriləcək.**



## Sərgən Yalçın "Neftçi"dən 2 milyon dollar istəyib

**Türkiyə mətbuatı Sərgən Yalçının "Neftçi" ilə danışıqlarına dair yeni məlumatlar yayıb. Qeyd edilib ki, tərəflər təkcə maddi yox, başqa məsələlərdə də razılığa gələ bilməyiblər.**

Qol.az xatırladır ki, 50 yaşlı mütəxəssis paytaxt klubunun baş məşqçisi vəzifəsinə əsas namizəd olub. Dünən o, Bakıda "Neftçi"nin Müşahidə Şurasının sədri və SOCAR-ın prezidenti Rövşən Nəcəflə görüşüb. Görüşdən sonra S.Yalçın İstanbula qayıdıb. Səfərdə onu müşayiət edən köməkçisi Murat Şahin sosial media hesabında paylaşım edərək görüşə görə Rövşən Nəcəfə təşəkkür edib.

Yayılan xəbərə görə, S.Yalçın bir mövsüm üçün 2 milyon dollar tələb edib. SOCAR-dan isə ona 1,5 milyon dollar verməyə hazır olduqları bildirilib. Dünənki görüşdə tərəflər razılığa gələ bilməyiblər. Türkiyə mətbuatı görüşün nəticəsiz başa çatdığını qeyd edib. Amma eyni zamanda S.Yalçının düşünmək üçün vaxt götürdüyü və "Neftçi"yə yekun cavab vermədiyi də qeyd olunub

"Sabah" qəzeti də danışıqlarda yekun razılıq əldə olunmadığını yazıb. Qəzet bildirir ki, tərəflər təkcə maddi yox, digər məsələlərdə ortaq məxrəcə gələ bilməyiblər. Qeyd edilib ki, Avropa kubokları və liqadakı hədəflərlə bağlı da tərəflər arasında fikir ayrılığı olub. Qəzet bununla bağlı detalları yazmayıb.



## Elmar Məmmədyarovun səfir olmaq istəyinə "yox" cavabı

**Sabiq xarici işlər naziri Elmar Məmmədyarov yenidən hakimiyyət komandasında təmsil olunmaq istəyir. E. Məmmədyarovun bundan sonra da diplomatik müstəvidə fəaliyyət göstərmək niyyətində olduğu deyilir.**

Yenisabah.az-ın əldə etdiyi məlumata görə, keçmiş nazir bu arzusunu reallaşdırmaq üçün hakimiyyətin yuxarı eşelonunda təmsil olunan bir neçə nəfərə minnətçi düşüb. 63 yaşlı diplomat Bakıda deyil, ölkəmizin hüdudlarından kənarda işləmək istədiyini bildirib.

Məlumatlı şəxs saytımıza açıqlamasında sabiq XİN başçısının ABŞ-da diplomatik işdə çalışmaq istədiyini deyib. Onun sözlərinə görə, E.Məmmədyarov əvvəlcə Azərbaycanın ABŞ-dakı səfiri olmaq niyyətini açıqlayıb. Amma bu arzusunun reallaşmasının mümkün olmadığını anladığı üçün başqa bir posta iddialıdır. O, Azərbaycanın BMT-dəki daimi nümayəndəsi olmaq istəyir. Məmmədyarov 1992-ci ildən bu qurumda çalışan 68 yaşlı diplomat həmkarı Yaşar Əliyevi əvəzləməyə can atır.

Mənbə deyib ki, E.Məmmədyarov daimi nümayəndənin müavini, hətta Azərbaycanın BMT-dəki Daimi Nümayəndəliyində I katib olmağa da razıdır. Başlıca məqsədi yenidən diplomatik statusunu bərpa etmək və ABŞ-da yaşayan övladlarının yanına köçməkdir.

2020-ci ilin iyulunda biabırçı şəkildə işdən çıxarılan sabiq nazirə yenidən etimad göstərilib-göstərilməyəcəyi isə sual altındadır.

YENİ MÜSAVAT
N 109 (8245) 23 iyun 2023

**Ermənistanın Arazdəyəndə inşa etdiyi ekoloji cəhətdən zərərli metallurgiya zavodunda ABŞ və Ermənistan bayraqlarını birgə qaldırılması bəzi iddialara səbəb olub.**

# ABŞ-ı Naxçıvan sərhədinə gətirən ilginc səbəblər - Bakı ilə Moskvaya mesaj...

## İrəvan bununla Rusiyadan incikliyini bir daha bəyan edərək, özünə daha etibarlı müttəfiq tapmasının mesajını verir; həmçinin ermənilər düşünürlər ki, Kərki də daxil, Azərbaycan kəndlərinin təhvil verilməsindən ABŞ bayrağı ilə yayına bilərlər

"Yeni Müsavat" bildirir ki, İrəvan bununla Rusiyadan incikliyini bir daha bəyan edərək, özünə daha etibarlı müttəfiq tapmasının mesajını vermiş olur. Ermənilər düşünürlər ki, Kərki də daxil, Azərbaycan kəndlərinin təhvil verilməsi ilə bağlı öhdəlikdən ABŞ bayrağı ilə yayına bilərlər.

Özünü ədalət çarçısı kimi təqdim edən ABŞ-ın hələ sərhədlər müəyyənləşməmiş gəlib Naxçıvanda şübhəli zavod tikintisinə başlaması özü də ciddi suallar doğurur. Belə qənaətə gəlmək olar ki, Ermənistanın Zəngəzur dəhlizindən keçəcək dəmir yolu xəttinin bir hissəsinin məhz düşdüyü Arazdəyəndə belə bir zavodu inşa etməsi Azərbaycanla gərginliyə başqa dövlətləri də qatmaq məqsədi daşıyır.




Zavodun tikintisində hindlilərin çalışdırılmasından tutmuş, bu zavodun investorlarının ABŞ-dan olması və həmin ərazidə Amerika bayrağının qaldırılmasına kimi bütün bu detallar ondan xəbər verir. Ekspertlərə görə, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin mətnindəki detallar razılaşdırma mərhələsinə yaxınlaşdıqca kənar aktorların geosiyasi ambisiyaları da artmaqdadır. Nəzərə alsaq ki, rəsmi İrəvan son açıqlamalarında açıq şəkildə Overçukun Zəngəzur dəhlizi ilə bağlı Bakı və İrəvan arasında əldə edilən müsbət irəliləyişləri təkzib etməklə məşğuldur. O deməkdir ki, Arazdəyəndə ABŞ bayrağı qaldıran Ermənistan bu məsələdə Kremlə də növbəti mesajını göndərmiş olur. Moskva İrəvanın bu "acıqvermə" hərəkətlərini izləyir və hələ ki sərt reaksiya vermir. Amerika ilə Rusiya arasında yaxın illərdə heç bir mülayimləşmə gözlənilmir, əksinə, gərginlik pik həddə arta bilər. İrəvan yaxşı bilir ki, indiki məqamda Ermənistan sərhədində Amerika bayrağı qaldırmasını Rusiya, sadəcə, bir zavod tikintisi kimi qəbullanmayacaq.

Rusiya dəhliz üzrə nəzarət mexanizmi yaratmaqda, nəqliyyat-kommunikasiya yolu boyunca öz qoşun birləşmələrini yerləşdirməkdə maraqlı tərəf kimi görünsə də Ermənistan ABŞ-ın maraqları çərçivəsində hərəkət etməyi daha məqsədəuyğun hesab edir. Təsadüfi deyil ki, ötən həftə Rusiyanın dövlət agentliyi Birləşmiş Ştatların Qarabağın erməni nümayəndələrini Azərbaycanla görüşməyə məcbur etdiyini, imtina etdikdə antiterror əməliyyatı ilə hədələdiyini yazmışdı. Rusiya Xarici İşlər Nazirliyi isə bəyan edib ki, ABŞ-ın Bakı və Xankəndi arasındakı dialoqda "hədə-qorxu" tonunda vasitəçilik xidmətləri ilə bağlı məlumatlardan narahatdır, bu, amerikalı vasitəçilərin "adekvatlığına dair suallar yaradır".

"Vaşinqtonda Qərbi Zəngəzur bölgəsində Amerika bayrağının dalğalanmasına iki yanaşma ola bilər. Birinci yanaşma Amerika bayrağının Rusiyanın Ermənistandakı hərbi bazasına və İranla sərhədə yaxın ərazidə dalğalanmasına müsbətdir, düşünürlər ki, bununla həm Ermənistanı Rusiya və İranın təsirindən uzaqlaşdırırlar, həm də Moskva və Tehrana Amerikanın bölgədə varlığını nümayiş etdirirlər", - deyə politoloq Elxan Şahinoğlu bildirib. İkinci yanaşma isə Amerika bayrağının təhlükəli zonada dalğalanmasının ümumi işə faydası olmadığı və Azərbaycan-ABŞ münasibətlərinə mənfi təsir edə biləcəyindən ibarətdir: "ABŞ bayrağının Qərbi Zəngəzurda dalğalanması Rusiyanın və İranın maraqlarına zidd olmalıdır, hər ikisi həssas ərazidə bayraq vasitəsilə Amerikanın varlığına mənfi yanaşmalıdırlar, ancaq nə hikmətdirsə hələ ki Moskva və Tehrandan reaksiya yoxdur. O ki qaldı Azərbaycana, Ermənistan BMT-yə üzv olan bütün ölkələrin bayraqlarını Qərbi Zəngəzurda dağlandırsa belə, bu onun problemlərini həll etməyəcək. Bunu elə Amerika bayrağını həmin ərazidə qaldıran şirkətin erməni təmsilçisi də bu sözlərlə etiraf edib: "İnanmıram ki, Amerika bayrağı Azərbaycanı dayandırsın".

**Mütəxəssislər necə qiymətləndirirlər, Qərbi Zəngəzurda Amerika bayrağı Rusiyaya gözdağı, Bakıya isə Kərki və 7 kəndi geri almaq üçün əngəl olmaq məqsədi daşıyırmı? Bu sualı cavablandıran politoloq Tofiq Abbasov "Yeni Müsavat"a açıqlamasında Amerika bayrağını hara baxsaq görmək mümkün olduğunu qeyd etdi. Onun sözlərinə görə, bu detal Ermənistanın ABŞ-a yaxşı münasibəti olduğunu göstərmək üçündür. T.Abbasov hesab edir ki, bizim üçün bu məsələdə əsas narahatedici faktor zavodun ekoloji baxımdan təhlükə saçmasıdır:** "Bir tərəfdən Arazın suyunu zəhərləyəcəklər, bir yandan suyun azalmasına səbəb olacaqlar. ABŞ bu proseslərdən xəbərdardır. Bilirlər ki, ekoloji cəhətdən bu layihə təhlükəlidir. Amma əsas odur ki, ABŞ-ın öz hüdudlarından uzaqdadır. Onlar həmişə üçüncü qüvvələri özündən kənarda vuruşdurur və sonda bayrağını ucaldır. Vaşinqton baxmayaraq ki, Bakı ilə iqtisadi əlaqələri genişləndirir, amma bu gün ikili yanaşma ortaya qoyur. Ermənistanla bu əlaqələri ola bilər, amma bizi maraqlandıran ekoloji zərəri olmasıdır".

**Ekspert razılaşır ki, burada digər niyyət Rusiya və İrana gözdağı verilməsidir:** "Lavrov dedi ki, Avropa Birliyi və ABŞ Rusiyanı Cənubi Qafqazdan çıxarmaq üçün birləşiblər. Sadəcə, əgər Rusiya narahatdırsa, niyə ikibaşlı oynayır? Bir tərəfdən Azərbaycanla müttəfiqlikdən danışır, gah Qarabağ erməniləri üçün statusu gələcək nəsillərə saxlayır, gah da Vardanyan kimi Xankəndinə aidiyyəti olmayan birini göndərib. Hazırda bu adam qondarma qurumun sabiq "dövlət naziri" kimi açıqlamalar verir. Yəni Amerika, İran, Rusiya və Avropa Birliyi ikibaşlı oyun oynayırlar. Biz bu detalları diqqətlə izləyirik, Azərbaycan dövləti prinsipial mövqeyini bildirməlidir. Necə ki Vaşinqton görüşündən imtina edildi. Çünki Avropa Birliyinin ATƏT-dəki nümayəndəsi ağzına gələni danışmışdı. Biz də imtina etdik ki, sizin saxta moderatorluğunuz lazım deyil. Amma gərək Rusiya da vasitəçilik fəaliyyətini durultsun, şəffaflaşdırsın, olduqca bulanıq siyasət aparır. Kəsəsi, bəzi məqamlarda daha sərt olmalıyıq. Elə bilməsinlər ki, bu güclərin ikibaşlı oyunlarını görmürük".

**Siyasi şərhçi Asif Nərimanlının fikrincə, İrəvanda hesab edirlər ki, zavodda ABŞ bayrağı asılarsa, "Azərbaycan atəş açmaqdan çəkinəcək". Onun sözlərinə görə, bununla bağlı ABŞ-ın Ermənistandakı səfirliyi ilə müzakirələr aparılıb, razılıq əldə olunub:** "Əvvəl də qeyd etmişdik - Ermənistan ABŞ-dan olan investisiya ilə metallurgiya zavodunu Arazdəyəndə inşa etməklə Kərki kəndinin hərbi yolla azad edilməsi perspektivi önündə "qalxan" qazanmağı planlaşdırır. ABŞ bayrağını zavoda gətirmək istəkləri bu niyyətlərinin isbatı hesab edilə bilər. Lakin Bakıda bu ərazilərin azad olunması qərarı veriləcəksə, bunu ABŞ bayrağı, yaxud investisiyası dayandıra bilməz".

**Siyasi təhlilçi Yeganə Hacıyevanın sözlərinə görə, bu, Ermənistanın ABŞ-ı regionda müharibəyə cəlb etmək cəhdidir:** "Digər bir məqam həmin şirkətlərin həqiqətən ABŞ şirkətləri olub-olmadığını dəqiqləşdirməkdir. Çünki həmin şirkətlər ABŞ vətəndaşı olan etnik ermənilərin də ola bilər və ya hər hansı ofşor şirkət ola bilər. Bu, ümumilikdə heç nəyi dəyişmir, amma bu çox erməncə, hiyləgər cəhddir. Məsələnin bir tərəfi də Ermənistanın məhz münaqişəni genişləndirmək və yeni tərəfdaşlar axtarmaq istiqamətində primitiv səylərindən biridir".

❑ **Emil SALAMOĞLU**
**"Yeni Müsavat"**

# Bayramov və Mirzoyan gələn həftə görüşəcək

**Azərbaycan və Ermənistan xarici işlər nazirləri gələn həftə görüşəcək. Bu barədə Ermənistan Baş naziri Nikol Paşinyan bildirib. O deyib ki, görüş Vaşinqtonda baş tutacaq. Paşinyan görüşün dəqiq tarixini açıqlamayıb.**

Qeyd edək ki, iyunun ortalarında Vaşinqtonda keçirilməsi planlaşdırılan XİN başçılarının görüşü təxirə salınıb. XİN-in sözçüsü Ayxan Hacızadə deyib ki, Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında növbəti görüşün dəqiq tarixlərinin müəyyənləşdirilməsi istiqamətində iş aparılır.

"Ümidvarıq ki, bu görüş yaxın zamanlarda baş tutacaq. Bir qayda olaraq, görüşün dəqiq tarixlərinin əlaqələndirməni həyata keçirən təşkilatçı ölkə tərəfindən elan edilməsi təcrübəsi mövcuddur", - XİN rəsmisi qeyd edib.

# Rusiya və Ermənistan arasında gömrük razılaşması

**Ermənistan və Rusiya gömrükçüləri "Yuxarı Lars"da stabil keçidi təmin etmək üçün əməkdaşlıq etmək barədə razılığa gəliblər. Ermənistan mətbuatı xəbər verir ki, Ermənistan Dövlət Gəlirləri Komitəsinin sədr müavini Aşot Muradyan Rusiya Federal Gömrük Xidmətinin rəhbərliyindən Ruslan Davıdovla görüşdə Vladiqafqazda keçid məntəqəsinin ötürücülük qabiliyyətinin artırılması və növbələrin aradan qaldırılması üzrə tədbirləri müzakirə edib.**

Ermənistanın baş naziri Nikol Paşinyan Yuxarı Larsla bağlı problemlərin həllinə görə Rusiya Prezidenti Vladimir Putinə, habelə Rusiya və Gürcüstanın baş nazirləri Mixail Mişustin və İrakli Qaribaşviliyə təşəkkür edib.

Ermənistan mətbuatının xəbərə görə, Nazirlər Kabinetinin iclasında Paşinyan qeyd edib ki, işi təkmilləşdirmək həmişə tərəflərlə danışıqların gündəliyində olub. "Son zamanlar rusiyalı tərəfdaşlarla uzunmüddətli danışıqlar öz nəticəsini verib. Bu, son qlobal logistika dəyişiklikləri çərçivəsində prosesləri sürətləndirəcək", - deyə Ermənistanın baş naziri vurğulayıb.

Qeyd olunub ki, keçid məntəqəsində hərəkət zolaqlarının sayı 39-a çatdırılıb və buradan hər gün 1500-ə qədər ağır yük maşını keçir. Gürcüstan tərəfində ilin sonuna kimi zolaqların sayı da 9-dan 24-ə qədər artacaq.

YENİ MÜSAVAT
N 109 (8245) 23 iyun 2023

**Son günlər ölkənin üç müxtəlif rayonunda baş verən olaylar diqqəti yenidən icra başçılarına yönəldib. Qaradağda qazinin öz maşınına icra hakimiyyəti binasının qarşısında od vurması, Naftalanda qazinin özünü yenə də icra hakimiyyəti ilə aralarında olan narazılıq səbəbindən yandırması, nəhayət, Gədəbəydəki məlum olaylar yerli idarəetmədəki problemlərdən qaynaqlanır.**

# Üç rayonda baş verənlər... - icra hakimiyyətlərinin ləğvi yenə gündəmdə

## Ekspertlərə görə də artıq icra hakimiyyəti orqanlarının vəzifəsi Prezidentin səlahiyyətli nümayəndələrinə verilməlidir

Uzun illərdir ki, icra hakimiyyəti strukturlarından daxil olan şikayətlər, bəzi icra başçılarının özbaşınalığı hətta bir çoxunun həbsi ilə nəticələndi. Görünən odur ki, bu struktur dövrün tələblərinə uyğun gəlmir. Bütün bunların fonunda icra hakimiyyəti strukturunun tədricən ləğv olunacağı barədə fikirlər dolaşır. İddialara görə, bir müddətdən sonra idarəetmədə əsaslı dəyişiklik olacaq və artıq yerlərdə icra hakimiyyətləri və icra başçıları olmayacaq.

Yada salaq ki, hazırda Azərbaycanda 14 iqtisadi region var. Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri bu 14 iqtisadi regionu da əhatə edir. Hələlik bu idarəetmə strukturu Qarabağda və Naxçıvanda tətbiq edilir. Ancaq ötən iki il göstərir ki, yeni idarəetmə modeli çox uğurludur. Belə olan halda məsələlərə birbaşa Prezident nəzarət edə bilir. Dövlət başçısının son açıqlaması da bu barədə qəti qərarların yaxınlaşdığını göstərir.

Bu ilin mart ayında Prezident İlham Əliyev ölkədə yerli idarəetmə sistemində (icra hakimiyyətləri stukturunda) dəyişikliklər olacağı haqda anons edib. Prezident İlham Əliyev Məsim Məmmədovu Prezidentin Laçın rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar qəbul edərkən bu barədə danışıb. “Demək olar ki, indi bu təyinatdan sonra azad edilmiş əksər rayonlarda mənim xüsusi nümayəndələrim artıq fəaliyyətə başlayacaqdır. Hələ təkcə Kəlbəcər rayonunda təyin edilməyib, bu da olacaq. Bu ərazilərdə, eyni zamanda, yeni idarəetmə üsulu da tətbiq edilməlidir və edilir. Gələcəkdə bu, yeni idarəetmə modeli kimi ölkəmizin bütün digər hissələrində də tətbiq edilməlidir. Yəni, bu, həm böyük quruculuq işləridir, həm də yeni idarəetmə üsuludur”.



Ekspertlərə görə də artıq icra hakimiyyəti orqanlarının vəzifəsi səlahiyyətli nümayəndələrə verilməlidir. Çünki bu, faktiki olaraq Qarabağda özünü müsbət bir məqam kimi göstərdi və hazırda səlahiyyətli nümayəndəlik idarəetmə üsulunun tətbiq edildiyi rayonlarda müsbət işlərin şahidiyik. Bu idarəetmə üsulu özünü doğruldur. Ona görə də bütün Azərbaycan ərazisində bu, həyata keçirilməlidir.

**Sabiq maliyyə naziri, iqtisadçı alim Fikrət Yusifov dedi ki, son bir neçə ildə yerli icra hakimiyyəti başçılarının vəzifədən kənarlaşdırılması, bəzilərinin hətta həbs olunması artıq bu idarəçilik üsulunun köhnəldiyinə və onun müasir tələblərə cavab verən yeni idarəçilik üsulları ilə əvəzlənməsinin vaxtının çatdığını göstərir:** "Cəmiyyətdə bir müddət fəaliyyət göstərdikdən sonra vəzifəsindən kənarlaşdırılmış və ya həbs edilmiş yerli icra hakimiyyəti başçılarının təyinatı ilə bağlı tənqidi fikirlər səslənir. Ancaq bu zaman kadrların seçilməsi qədər mürəkkəb bir məsələnin həllində istənilən səviyyədə və istənilən ölkədə xətaların baş verməsinin təbiiliyi unudulur. Məsələ üzdə göründüyündən çox-çox dərin və mürəkkəbdir. Mən dövlət idarəçilik məktəbində yetərincə təcrübəsi olan biri kimi, kadr seçiminin nə qədər çətin və mürəkkəb bir iş olduğunu çox yaxşı bilirəm. Bir vəzifəyə təyinat üçün seçdiyi insanın iç dünyasını görmək hələ heç kimə müyəssər olmayıb. Sən tanıdığın birini və ya inandığın birinin təqdim etdiyi kadrı vəzifəyə təyin edirsən. Lakin təyin etdiyin insanın biliyinin, bacarığının, peşəkarlığının hansı səviyyədə olmasından asılı olmayaraq, onun düşüncələrində nələrin dolaşdığını müəyyən edə bilmirsən. Təyinat almış belələrinin “iç üzü” bir qədər fəaliyyətdən sonra ortaya çıxır. Bəzən sənə yüksək vəzifəyə təyin etdiyin adamın bəd əməllərindən məlumatlar daxil olduqda belə onu vəzifədən dərhal uzaqlaşdırmaq haqqında qərar qəbul etmək istəmirsən. Çünki inandığın birini və ya etibar etdiyin birinin təqdim etdiyi namizədi bu vəzifəyə təyin etmisən.

Vəzifəyə təyinat almış birinin əməlləri sağlam deyilsə, tutduğu yol yanlışdırsa, bu, gec-tez ortaya çıxır. Bax onda artıq qərar qəbul edirsən. Bu səbəbdən də hər kəs anlamalıdır ki, özünü doğrultmayan kadrlara görə kimisə ittiham etmək nə qədər asandırsa, kadrları seçib vəzifəyə təyin etmək bir o qədər çətindir. Dediklərimizin davamı olaraq - hansı ölkədə, hansı hökumətdə kadr təyinatında yanlışlığa yol verilmir? Bu problem inkişaf səviyyəsindən asılı olmayaraq dünyanın bütün ölkələrində tarix boyu olub, var və olacaq. Bu gün hakimiyyəti belə kadrların təyinatına görə ittiham edənlərin yadına isə Xalq Cəbhəsi hakimiyyətinin bir illik dövründə kadrların təyinatı sahəsində yol verilmiş böyük yanlışları salmaq istəyirəm. Bu tarix çox da uzaqda deyil. Adi sürücünü Bakı şəhər rayonlarından birinə icra hakimiyyətinin başçısı vəzifəsinə təyin etmiş kəslərin indiki hakimiyyətin kadr siyasətini tənqid etməyə mənəvi haqqı yoxdur.

Zamanla bütün problemlərin, o cümlədən yerli idarəçilikdə mövcud olan və artıq yetişmiş problemlərin həlli baş tutacaqdır".

**Sabiq nazir icra başçılarını “top atəşi”nə tutdu:** “Ölkənin rayonlarında mövcud idarəçilikdə son illər ərzində müşahidə olunan ən ciddi nöqsanlardan biri və birincisi yerli icra hakimiyyəti başçılarının vətəndaşların qaldırdıqları problemlərin həllinə ya tam biganə olmaları, ya da onların həllinə formal yanaşmalarıdır. Yerdə hər hansı bir rəhbər vətəndaşların problemlərinin həllinə ürəkdən yanaşarsa, bu insanlarda ona və hakimiyyətə qarşı böyük bir sevgi yaradacaq. Lakin təəssüf ki, bir çox yerli icra hakimiyyəti başçıları yerlərdə özlərini o yerin ağası, sahibi kimi aparır və insanların problemlərinin həllini arxa plana keçirirlər. İş o yerə çatır ki, icra başçısı vətəndaşların gözü qarşısında rüşvət və korrupsiya əməllərinə qurşanır, özləri üçün hər formada dəbdəbəli həyat tərzi qururlar. Beləleri bu cür əməllərlə tək özlərini deyil, bütövlükdə hakimiyyəti nüfuzdan salırlar.

Bu gün dünya dəyişsə də köhnə, paslanmış mentalla yaşayıb, tutduğu vəzifədə “qaz vurub, qazan doldurmaq istəyən” icra hakimiyyəti başçıları başa düşmək istəmirlər ki, onların hər bir hərəkəti cəmiyyət tərəfindən aydın bir şəkildə izlənir. Təəssüf ki, çoxları bunun belə olduğunu başa düşsələr də, bəd əməllərindən əl çəkmək istəmirlər. Bu artıq tamah da deyil, xəstəlikdir. Ölkə Prezidenti son bir neçə ildə belə “xəstə” icra başçılarının barəsində ən sərt tədbirləri gördü. Lakin görünən budur ki, sərt tədbirlərlə yanaşı, yerlərdə yeni idarəçilik üsullarının tətbiqinin vaxtı çatıb.

Regionlarda idarəçiliyin nümayəndəlik forması daha çevik və daha səmərəli bir üsul hesab olunmalıdır. Artıq bu sahədə yaxşı təcrübə var. Bu gün ölkədə ümumilikdə 92 icra hakimiyyəti (14 respublika tabeliyində olan şəhər, 66 kənd və 12 Bakı şəhər rayonlarının icra hakimiyyətləri) fəaliyyət göstərir. Bu, 10 milyon əhalisi, 82,6 milyon kvadrat kilometr ərazisi olan bir ölkə üçün çox böyük bir yerli idarəçilik aparatıdır. Belə çoxluğun özünün də idarə olunmasında problemlər yaranır. O səbəbdən idarəçiliyin yeni formasının tətbiqi bu qədər nəhəng və bürokratik idarəçilik sistemini sadələşdirməli və bununla da ölkənin hər bir bölgəsində baş verən bütün proseslərə ölkə rəhbərinin bilavasitə nəzarəti bərqərar olunmalıdır. Bu gün yerlərdə baş qaldıran hər hansı ən kiçik problemin operativ həlli belə idarəçiliyin tətbiqi ilə mümkün olacaq. Nəticə etibarilə yerlərdə vətəndaşlarımız da bir çox bürokratik əngəllərin aradan qalxmasının şahidi ola biləcəklər".

❑ **Cavanşir ABBASLI**
**“Yeni Müsavat”**

## “Yeni komandada çox təhlükəli tendensiya var”

### Əli Məsimli: “Bilmirəm bu göstəriş haradan gəlir, amma Azərbaycanda bumeranq effektini verəcək”

**Son dövrlər “Banklar haqqında”, “Mərkəzi Bank haqqında”, “Hesablaşmalar haqqında” qanunlarda müsbət məqamlarla yanaşı, xüsusi mənfi xətt də var. Bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında deputat Əli Məsimli bildirib.**

“Bu da hər şeyin təmərküzləşdirilməsidir. Bunun hansısa normalar çərçivəsində dünya praktikasında öz əksini tapan dərəcəsini müsbət qiymətləndirirəm, amma normadan yuxarı olması bizim inkişafımıza çox mənfi təsir göstərəcək. Məsələn, hansısa təşkilata rəhbər gələndə orada birinci bütün funksiyaları öz üzərinə götürür. Sonra görür ki, bunların yarısını müavinə vermək lazımdır. Bunu paylaşdırandan sonra həmin təşkilatda iş getməyə başlayır. İndi yeni komandalarda çox təhlükəli bir tendensiya var ki, bu da hər şeyi mərkəzləşdirməkdir. Bilmirəm, bu göstəriş haradan gəlir, amma Azərbaycanda bumeranq effektini verəcək. Bundan əlavə, məmur sahibkarlığı da satınalmalarda xeyli çətinlik törədir. Satınalmalarda şişirdilmiş qiymətlər bütün dünyada var. Amma Azərbaycanda isə insafsızlıqdır”, - deyə deputat şikayətlərini çatdırıb.

YENİ MÜSAVAT
N 109 (8245) 23 iyun 2023




**Gədəbəyin Söyüdlü kəndində məlum insident baş verəndən sonra bu, qısa zaman kəsiyində ölkə gündəminə çevrildi. Bütün səlahiyyətlilərin diqqət mərkəzi Söyüdlüyə yönəldi. İlk gün əhaliyə qarşı polis nəfərləri tərəfindən müəyyən kobudluq edilsə də, Daxili İşlər Nazirliyi dərhal həmin polislərin cəzalandırılacağı ilə bağlı açıqlama yaydı. Növbəti gün baş nazirin tapşırığı ilə xüsusi komissiya yaradıldı, dövlətin nümayəndələri Söyüdlü kəndinə yollanıb, sakinlərlə görüşdülər, onların problem kimi gördükləri məsələlərin həlli istiqamətində qəti addımlar atılacağı bildirildi. Hazırda da bu istiqamətdə müvafiq qurumların nümayəndələri tərəfindən işlər aparılır. Xırda insidentin dövlətə qarşı böyük aksiyaya çevrilməsinin qarşısı alınıb.**

# Gədəbəy olayları - Azərbaycanı qarışdırmaq istəyənlər, adlar, faktlar...

## Təxribatın təşkilatçıları sırasında Gədəbəyin keçmiş icra başçısı, AXCP üzvü Saleh Rüstəmov və onun oğlu da var; sakinlərdə peyda olan şüar və plakatlar Gəncədə hazırlanıb, sabiq deputat Nazim Bəydəmirli isə...

Bəs necə oldu ki, dövlətin yanında olan vətəndaşlar birdən-birə polislə üz-üzə gəldi? Ucqar kənddə bu cür xoşagəlməz durumun yaranmasının arxasında kimlər dayanır?

Hadisədə Rusiya ilə bağlı olan “5-ci kolon”un iştirakına dair təkzibolunmaz dəlillər var ki, bununla bağlı faktları aşağıda təqdim edəcəyik.

Musavat.com-un əldə etdiyi məlumata görə, baş vermiş hadisə xarici xüsusi xidmət orqanları tərəfindən məqsədyönlü şəkildə təşkil və idarə olunub, bu zaman sadə kənd əhalisi ilə manipulyasiya edilib.

**Qarışıqlıq kimə lazım idi?**

Gəlin bir neçə ay öncəyə nəzər salaq. Azərbaycanın ekofəalları, dövlətimiz bir neçə ay bundan öncə Laçın-Xankəndi yolunda aksiya təşkil etdi və ermənilərin yataqlarımızdan qanunsuz istifadəsi, gizli yollarla silah daşımasının qarşısı alındı. Dolayısı ilə Azərbaycan Rusiyanın “Ruben Vardanyan layihəsini” dardamağın etdi və sülhməramlıların müvəqqəti nəzarətində olan yataqların qanunsuz istismarına imkan verilmədi.

Ardınca Azərbaycan Laçında keçid məntəqəsini qurdu. Bütün bunlar baş verən zaman ermənilər hər dəfə sərhəddə təxribatlar törətdilər. Hesab elədilər ki, bununla dövlətimizin qəti qərarlarına əngəl törədib, prosesi öz xeyirlərinə dəyişəcəklər. Lakin buna nail ola bilmədilər. Azərbaycan hərb meydanındakı uğurları ilə yanaşı beynəlxalq siyasi meydanda da uğurlu siyasət apararaq düşməni sarsıtdı və artıq son həftələrlə Ermənistan da başa düşdü ki, sülh müqaviləsini imzalamaqdan başqa çıxış yolu yoxdur.

Sülh müqaviləsi ilə bağlı gələn həftə ABŞ-da danışıqların növbəti raundu planlaşdırılır.


Saleh Rüstəmli


Sezgin Rüstəmov



Bundan başqa, Azərbaycan dünən Londonda keçirilən Ukraynanın bərpasına dair konfransda iştirak edib və Ukraynaya humanitar yardımları davam etdirəcək.

Əlbəttə ki, bütün bu məqamlar əsasən bir ölkədə-Rusiyada narazılıq doğurub. Bununla da Azərbaycanda süni yolla qarşıdurma yaratmaq üçün təxribata start verilib.

**Təxribatı kimlər törədib?**

Etibarlı mənbələrdən Musavat.com-a daxil olan məlumata görə, sadə əhalinin manipulyasiyası ilə törədilmiş təxribatın əsas iştirakçıları bunlardır:

*Afiq Allahverdiyev,*
*Etibar Cabbarov,*
*Dadaş Şirinov.*

A.Allahverdiyev və E.Cabbarov Rusiya Federasiyasının vətəndaşlarıdır, Rusiyada yaşayırlar. Hər iki şəxs hadisədən bir müddət əvvəl yasda iştirak adı ilə Gədəbəydə olub. Onlar kəndə böyük pulla gəliblər. Burada onlar kənd sakinləri arasında nüfuzlu, sosial şəbəkələrdən istifadə etməyi bacaran şəxsləri müəyyən ediblər. Bundan sonra 400 nəfərlik “Whatsap” qrupu yaradılıb.

Dadaş Şirinov qızıl yatağında işləyən şirkətdə sürücü kimi çalışıb və daim Allahverdiyev və Cabbarovla əlaqədə olub. Onun Allahverdiyevdən konkret təlimatlar aldığı məlumdur. O, həmçinin aksiyadan çəkilmiş görüntülərin Tik-tok-da geniş yayılmasını təmin etməli idi. Bundan başqa, D.Şirinov təxribatın növbəti mərhələsində çalışdığı müəssisənin işçilərini də aksiyaya cəlb etməli və tətilə səsləməli idi.

“Whatsap” qrupu üzərindən danışıqlar zamanı A.Allahverdiyev Söyüdlü kənd sakinlərini “ekoloji problemlə” bağlı mütəmadi olaraq “məlumatlandırıb”, xüsusilə yataqda “texnologiyanın standartlara uyğun olmaması, gölün üstünün açıq olması, sızıntı olması, gölün dolub daşması, insanların xəstə olması, ağciyər, xərçəng, damar xəstəliklərinin yaranması, insanların çətin nəfəs alması” və s. bu kimi amilləri əsas gətirərək dövlət qurumlarına etirazlar göndərilməsinə dair təlimatlandırıb.

İyunun 20-də baş vermiş qarşıdurma zamanı da Allahverdiyev kənd sakinlərini aqressiv tərzdə istiqamətləndirib, onları icra hakimiyyəti binasının qarşısına toplaşmağa çağırıb və s. Qrupda ən radikal addımlar atmağa dair çağırışlar olub. Səs yazılarında açıq şəkildə təxribatların hazırlanması üçün pul yığıldığı, aksiya edənlərlə bağlı hesabatların istənildiyi eşidilir. İnsanlar küçələrə çıxarılır...

**“Whatsap” qrupundakı danışıqlar və məkrli qərarlar**

İnsident baş verən gün sakinlər məhz bu tapşırıqlara və göstərişlərə uyğun hərəkət ediblər.

Məlum olub ki, təxribatın hazırlanması zamanı təşkilatçılar Gədəbəyin keçmiş icra başçısı, bir müddət həbsdə olmuş AXCP üzvü Saleh Rüstəmov və onun oğlu Sezgin Rüstəmovla da təmasa keçiblər. Vaxtilə Moskva bazarlarından Əli Kərimli üçün pul toplaması ilə tanınan S.Rüstəmov və oğlu təxribatçılara lazımi dəstək olacaqlarına söz veriblər.

S.Rüstəmov mövzunu siyasiləşdirərək AXCP-nin gündəminə çıxarmalı, oğlu Sezgin isə gənclər arasında təbliğat işi görməli idi.



Əldə olunan məlumata görə, təxribatçıların Rusiya ilə bağlı “5-ci kolon” üzvlərindən olan keçmiş millət vəkili Nazim Məmmədovla da təmasları olub və N.Məmmədov Bakıdan bu proseslərin koordinasiyası ilə məşğul olub. Məlumat üçün bildirək ki, vaxtilə vergilər naziri Fazil Məmmədovun dəstəyi və Ramiz Mehdiyevin razılığı ilə parlamentdə təmsil olunmuş N.Məmmədovun bir müddət AXCP-yə maliyyə dəstəyi ayırdığı məlumdur.

**Şüar və plakatlar Gəncədə hazırlanıb**

Qarşıdurma zamanı xüsusi canfəşanlıq edənlərə pul verilib, onlara polisi təxribata çəkmək, onların özlərinə və ailələrinin ünvanına ağır söyüşlər səsləndirməklə hövsələdən çıxarmaq və sərt reaksiyaya təhrik etmək tapşırılıb.

Təxribatın informasiya təminatı üçün Meydan TV, Toplum TV və bir sıra digər “bloger”lər əvvəlcədən hadisə yerinə gəliblər, bir neçə kamera ilə müxtəlif rakurslardan çəkiliş ediblər. Bu zaman polisə qarşı təhqir və zorakılıq halları göstərilməyib, yalnız cavab tədbirləri geniş çəkilərək yayılıb.

Bütün bunlarda əsas məqsəd - xırda insidenti böyüdərək dövlətə qarşı aksiyaya çevirmək olub.

Amma dövlətin çevik reaksiyası, vətəndaşların məsuliyyətli yanaşması və icra orqanlarının əhali ilə təması nəticəsində təxribatın qarşısı alınıb.

Bundan sonra da əhali ilə yuxarıda qeyd etdiyimiz kimi, danışıqlar aparılacaq və kimlərinsə məkrli, xain istəkləri baş tutmayacaq.

❑ **Musavat.com**

YENİ MÜSAVAT
N 109 (8245) 23 iyun 2023

**Baş nazir Əli Əsədovun sərəncamı ilə Gədəbəy rayonunun Söyüdlü kəndində tullantıxana sahəsində monitorinqlərin aparılması və mövcud vəziyyətin qiymətləndirilməsi məqsədilə komissiya yaradılıb. Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev komissiyanın sədri təyin edilib. Komissiyanın tərkibinə səhiyyə nazirinin müavini, fövqəladə hallar nazirinin müavini, kənd təsərrüfatı nazirinin müavini, Nazirlər Kabineti Aparatının Sənaye və energetika şöbəsinin müdiri, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəisi və Gədəbəy Rayon İcra Hakimiyyətinin başçısı daxildir.**



# Hökumət komissiyası "Gədəbəy düyünü"nü aça biləcəkmi?

## Komissiya süni gölə baxış keçirdi; ilkin araşdırmanın nəticələri açıqlandı

İyunun 22-də Söyüdlü kəndində vəziyyətin araşdırılması üçün yaradılan komissiyanın üzvləri Gədəbəy rayonuna gəlib. Komissiya Söyüdlü kəndində tullantıxana sahəsində monitorinqlərin aparılmasını və mövcud vəziyyətin qiymətləndirilməsini təmin etməli, sakinlərin sağlamlığının və ətraf mühitin qorunması sahəsində vətəndaşların müraciətlərini araşdırmalı, monitorinqin və qiymətləndirmənin nəticələrinə uyğun olaraq müvafiq təkliflərini hazırlayıb Nazirlər Kabinetinə təqdim etməlidir.

Elə həmin komissiyanın Gədəbəydə ilk iclası keçirilib. İclasdan sonra komissiya üzvləri Söyüdlü kəndindəki süni gölün yerləşdiyi əraziyə gedib. Onlar zavodun ərazisindəki tullantıxanaya - gölə baxış keçirlər. Komissiyanın sədri Muxtar Babayev bildirib ki, orada artıq monitorinq qrupları çalışmağa başlayıb: "Əhali ilə görüşəcəyik, bu gün və növbəti günlərdə toplanan materiallar təhlil olunacaq, hökumətə təqdim ediləcək. Hələ bir şey demək üçün tezdir".

Ərazidə monitorinq aparmaq üçün Ekologiya və Təbii Sərvətlər Nazirliyinin səyyar laborator maşını fəaliyyət göstərir.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin ərazidə monitorinq aparan qrupunun üzvləri komissiyanın sədri Muxtar Babayevə məlumat verib ki, gölün altı membranla örtülüdür, bu isə zərərli maddələrin torpağa təmas etməsinə imkan vermir. Gölə tökülən sianid isə peroksid ilə zərərləşdirilir. Qeyd olunub ki, nümunələr gölə tökülən sudan texniki su kimi istehsalatda yenidən istifadə etməyin mümkün olduğunu göstərir.

Komissiya üzvləri həmçinin ərazidə olan ehtiyat gölə də baxış keçiriblər. Bunun ardınca komissiya üzvlərinin Söyüdlü kəndinin sakinləri ilə görüşü olub.

Xatırladaq ki, Gədəbəy rayonunun Söyüdlü kəndində bir qrup şəxs kənd ərazisində süni gölün tikintisinə etiraz olaraq iyunun 20-də aksiya keçirməyə cəhd göstərib. Aksiyanın qarşısı alınan zaman polislə sakinlər arasında insident baş verib. Polis əməkdaşlarının aksiya iştirakçılarına qarşı gözyaşardıcı qazdan istifadə etməsi cəmiyyətdə narazılıqlara səbəb olub.

Gədəbəydəki etirazların səbəbləri ilə bağlı müxtəlif fikirlər səsləndirilir. Kimi bunu qızıl mədəni uğrunda mübarizə, kimi hansısa qüvvələrin hakimiyyətə qarşı narazılıq yaratmaq istəyi ilə izah edir. Kənd sakinlərinin etirazının bilavasitə ekoloji problemlə bağlı olduğunu bildirənlər də var.

Hökumətin reaksiyası və komissiyanın tərkibi onu göstərir ki, söhbət ekoloji problemlərə bağlanır. Hüquq-mühafizə orqanlarının komissiyanın işindən ayrı saxlanılması isə o mesajdır ki, əsas diqqət yalnız bu problemi doğuran səbəblərə yönələcək. Bu həm də sosial şəbəkələrdə guya aksiyaya görə kütləvi həbslər ola biləcəyi barədə iddiaları yalanlamış oldu.

Dünəndən ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi məqsədilə Söyüdlü kəndinə kənd sakinlərindən başqa şəxslərin girişi məhdudlaşdırılıb.

**Hüquq müdafiəçisi Novella Cəfəroğlu "Yeni Müsavat"a bildirdi ki, o və həyata yoldaşı 1980-ci illərin sonlarında Söyüdlü qızıl yataqlarının aşkara çıxarılmasını həyata keçirən geoloji ekspedisiya qrupunun üzvü olub. Həmin yataqlarda keyfiyyəti yüksək olan qızıl mövcuddur. Eləcə də ərazidə mis və sink yataqları da var:** "Həmid Məmmədov ekspedisiya qrupunun rəhbəri idi. Mən qrupda kimyaçı kimi fəaliyyət göstərirdim. O zamandan biz çalışırdıq ki, mədənin istismarı zamanı təbii olaraq meydana gələn müəyyən tullantıların ətrafa, ekologiyaya mümkün qədər az zərər vurmasına nail olunsun. Yuyulma prosesində zərərli tullantıların meydana gəlməsi qaçılmazdır. Lakin indiki zamanda müasir texnologiyalar imkan verir ki, ətrafa heç bir zərər vurmadan mədən istismar edilsin. Mən baş nazirin sərəncamı ilə yaradılan komissiyanın bu məsələnin həlli üçün addımlar atacağına ümid edirəm.

Məsələnin etiraz aksiyası və polisin sərt davranışı ilə bağlı hissəsinə gəldikdə, Gədəbəydə baş verən hadisələr müəyyən qədər müəmmalı məsələdir. Təbliğat aparılır ki, guya həmin qızıl mədəni bir ailənindir. Bu, tamamilə yanlış və insanları məqsədli şəkildə aldatmağa yönələn fikirlərdir. Qızıl mədəni bir şəxsin və ya ailənin deyil. Qızıl yatağı dövlətindir. Dövlət də yatağın istismar edilməsini bəlli şirkətə qanuni müqavilə ilə həvalə edib. Azərbaycana xüsusilə indiki dövrdə çox böyük miqdarda vəsaitlər lazımdır. Bu cür qızıl mədənlərindən də Azərbaycanın dövlət büdcəsinə vəsaitin daxil olmasının nəyi pisdir? Sadəcə olaraq, dediyim kimi, istismar prosesinin ətrafa, ekologiyaya ziyan vurmaması üçün müasir texnologiyaları tətbiq etmək lazımdır.

Kənd sakinləri etiraz edirlərsə, yəqin ki, həm də onların heyvanlarının otlaq yerləri azalıb. Ona görə də narahatdırlar. Onların bu məsələlərlə bağlı, hər halda, müəyyən istəkləri var və qızıl yatağı, süni göl məsələsini əllərində "bayraq" edib etiraza qalxıblar. Vətəndaşın etiraz etmək hüququ şübhəsiz ki, var. Ancaq müşahidələrə görə, kənd sakinlərini məqsədli şəkildə qızışdıranlar olub. Məni maraqlandıran məsələ odur ki, kənd sakinlərini, xüsusilə də qadınları qabağa verənlər, sakinlərlə danışıqlar aparmaq əvəzinə onların üzərinə zirehli geyimli polis qüvvələrini göndərən, aşırı güc tətbiq etmək, zərurət olmadığı halda gözyaşardıcı qazdan istifadə etmək əmrini verən kimlərdir. Bax həmin şəxslər tapılmalıdır. Mən hesab edirəm və gözləyirəm ki, daxili işlər naziri Vilayət Eyvazov bu məsələnin üzərində ciddi dayanacaq və dediyim adamlar aşkara çıxarılıb cəzalandırılacaq. Sakinlər icra hakimiyyətinə, Ekologiya Nazirliyinə müraciətlər ediblərsə və müraciətləri cavabsız qalıbsa, onların etirazlarını anlayıram. Bu məsələ də araşdırılmalıdır ki, sakinlər bu hadisəyə qədər icra hakimiyyətinə, digər aidiyyəti dövlət orqanlarına müraciətlər ediblərmi və ediblərsə, müraciətlərinə cavab verilibmi. Kənd sakinlərinin qabağına polisdən öncə icra başçısı çıxmalı idi, danışıqlar aparılmalı idi. Yaşlı qadınların qabağa verilməsini də doğru hesab etmirəm. Polislərin isə o şəkildə sərt davranmasını yanlış hesab edirəm. Bunları təşkil edənlər mütləq cəzalandırılmalıdır".

**Hüquq müdafiəçisi onu da dedi ki, indiki həssas dönəmdə Azərbaycanın diplomatik mübarizə apardığı bir vaxtda ölkəmizin dilini qısa etmək kimlərəsə lazım idi:** "Məsələn, ermənilər deyəcəklər ki, Azərbaycanın ekofəalları 4 aydan artıq Ağdərədəki mədənləri ilə bağlı aksiya keçirdilər, bu gün Azərbaycan özü Gədəbəydə qızıl yataqlarının istismarında ekologiyaya zərər vurur və buna qarşı çıxan öz əhalisini döyür, gözünə qaz sıxır. Bu gün Azərbaycan üçün o qədər həssas zamandır ki, ermənilərin və Azərbaycana düşmən olan digər qüvvələrin əlinə zərrə qədər də bəhanə vermək olmaz. Mövqeyimizi zəiflədəcək heç bir hərəkətə yol verməməliyik".

**Deputat Ceyhun Məmmədov isə bildirdi ki, baş nazirin sərəncamı ilə komissiyanın yaradılması lazımlı addım idi:** "Bir neçə gündür müzakirələr gedir, əhali öz narazılığını bildirir və icra başçısı da insanlarla görüşüb. Zamanında düzgün qərara qəbul edilərək komissiya yaradıldı və dərhal da fəaliyyətə başladı. Komissiya yerində işləyəcək, məsələləri ciddi şəkildə araşdıracaq və aidiyyəti dövlət qurumlarına nəticə barədə məruz edələcək və buna uyğun da addımlar atılacaq. Hesab edirəm ki, effektiv olacaq və problemin aradan qaldırılmasına təkan verəcək. Təəssüf ki, biz bu məsələlərdən digər zərərli məqsədlər üçün istifadə cəhdlərini də görürük. Bu, qəbuledilməzdir. Ona görə də belə vəziyyətlərdə hər kəs vahid dövlət mövqeyindən çıxış eləməyi bacarmalıdır. Yəni bu, ümumi bir problemdir və bu problemin aradan qaldırılması üçün addımlar atılır. Dövlət qurumları gərəkən bütün addımları ataraq öz yekun fikirlərini bildirəcəklər. Qarşıdurma bizə problem yarada bilər, dövlətimiz zərər görər. Ona görə də hər birimiz diqqətli olmalıyıq, qanunlara əməl etməliyik".

❑ Etibar SEYİDAĞA,
"Yeni Müsavat"



# Ölü partiyanı xatırlamağın cəzası

**Zamin HACI**
zaminhaci@gmail.com

**Dövlət qeydiyyatı ləğv edilən partiyalarımız var, bildiyiniz kimi, siyasi partiyaların ixtisarını hökumət "demokratik islahatlar" adlandırır. Yəqin koronadan ölənlərimiz də "səhiyyə islahatları" idi. Yaxud kəndlərin qazlaşdırılması proqramı bitib, hazırda kəndlilərin qazlaşdırılmasına başlamışıq. Fərdi şəkildə. Üzbəüz.**

Çox yaxşı idarəçilik prinsipləridir, alqışlayıram. Özü də bütün bu kimi mövzularda "Fransa da belədir" arqumenti keçərlidir. İnsafən mən özüm haradasa 10-15 il qabaq Fransada olmuşam, hökumətimiz düz deyir, Parisdə vəziyyət eynən Söyüdlüdəkinə oxşayır. Hətəmxan ağanın sözü olmasın, bircə fərq var ki, bizdə çox arvad almaq dəbdədir, onlarda çox kişi almaq.

Amma və lakin siyasi partiyaların meyiti üzərində eksperimentlər aparmaq da nədənsə vacib olubdur. Bugünlərdə parlamentoya yeni qanun layihəsi təkif edilir, orada yazılmışdır ki, qeydiyyatı ləğv olunmuş partiyaların toplantılarını keçirənlər 8 min manat cərimə edilsin. İnzibati Xətalar Məcəlləsinə maddə salınmalıymış.

8 min az pul deyil. Tarixən də belə olmuşdur, məsələn, "Bəyin oğurlanması" kinosunda deyirdi ki, "8 min pul vermişəm, oynamaqlarına bax". Bəs hökumət niyə siyasətlə məşğulat edənlərimizə qarşı belə sərtdir? "Partiya ölüb, basdırın, daha leşiylə oynaqlamayın" məntiqi iləmi? Ancaq çox sərt qərardır. İzah edim.

Lap hesab edək Azərbaycan Uğrunda Demokratik Liberal Xalq İslahatları Cəbhə Partiyası (AUDLXİCP) zamanın təzyiqlərinə dözməyərək bağlandı, hətta partiyanın "ili" çıxdı. Bir günsə partiyanın əski üzvləri çayxanada yığışıb ötən günləri yada saldılar, nərd oynadılar, xoruzpipiyi çay içdilər. Bu vaxt oradan keçən müxbir Fatmagül bacı hadisəni qəzetində əks etdirdi: "Qarpız ayının 23-də AUDLXİCP üzvləri Qulunun çayxanasında toplaşmışlar". Bəyəm buna görə onları 8 min cərimə etmək lazımdır? Nə olub? Dünya dağılıb?

Başqa örnək göstərirəm. Hansısa şəxs ölür, onun yasına yığışanlar xatirələrini danışır, molla fatihə verir, dağılışırlar. Bunun üçün hökumətin icazəsi lazım deyil. Bəs niyə siyasi partiyanın hətta ölüsünü xatırlamaq xəta sayılır?

Səbəb sadədir: hökumət bizdə əhalinin hər hansı şəkildə siyasətlə məşğul olmasını istəmir. Ona görə də siyasi fəaliyyətin istənilən növləri qadağan olunur. Siyasət sanki cinayətin bir növü, əxlaqsızlığın zirvəsi sayılır, çirkin iş adlandırılır, qəsdən gözdən salınır. Bir vaxt Milli Məclisin hansısa spikerinin dediyi sözlər vardı: "Burada siyasətlə məşğul olmağınıza icazə vermirəm".

Ancaq belə situasiyaların iki başı var və sən camaatı siyasətlə məşğul olmağa qoymasan, siyasət özü camaatla məşğul olacaqdır. Dərinə getmək istəmirəm, ariflər nəyə işarə etdiyimi anlamışdır, şübhəsiz. Cəzaları sərtləşdirmək, ümumiyyətlə, cinayətləri azaltmır, biləsiniz. Əgər belə olsaydı, narkotik satmağa görə ölüm cəzasının qüvvədə olduğu İrandan bizə hər gün tonlarla narkotik daşınmazdı.

Siyasi partiyaları, o cümlədən onların xatirələrini yox eləmək siyasəti mexaniki, avtomatik şəkildə yoxa çıxartmır. Sadəcə, siyasət şəklini dəyişir, ağılagəlməz və daha təhlükəli, pis formalarda üzə çıxır.

Bir versiya da var ki, siyasi partiyaların çarpaz xətlənməsi hakimiyyətin yaxın gələcəkdə parlament üçün proporsional seçkilərə qayıtmaq arzusunun göstəricisidir. Guya indiki halda tək-tək dairələr üzrə camaatla mübarizə aparmaq sərf etmir, baha başa gəlir, hakim partiyanın siyahısı ilə, topdan parlament qurmaq daha ucuz olar. Ancaq o zaman gözdən pərdə asma funksiyası oynayan "bitərəflər fraksiyası"nın taleyi necə olacaq? 125 nəfəri də YAP-dan qoysan, pis görünər, məcbursan bitərəflər üçün hansısa partiyalar uydurasan.

Sonda qeyd edim, mən özüm də siyasətlə məşğul olmuram, ümidvaram İXM-ə ləğv edilən siyasi partiyaları yazılarında xatırlayan jurnalistlərin 80 manat cərimələnməsi qaydası salınmaz.

---

**Rusiya və Ermənistan arasında gərginlik səngimir. Nikol Paşinyan hakimiyyətə gəldiyi gündən belədir. İndi isə vəziyyət hətta o həddə çatıb ki, İrəvan Moskvanın Qafan şəhərində konsulluq açmaq niyyətinə də qarşıdır. Rusiya məsələni sürətləndirmək istəsə də, Ermənistan əngəlləyir.**



# İrəvan indi də üçtərəfli sənədin 9-cu bəndinə qarşı

## Ermənistan Zəngəzur dəhlizində Rusiya FTX-nin yola nəzarətini "monitorinq" sözü ilə əvəzləyib, razılaşmanı təhrif etməyə çalışır

Bu mövzuda Rusiyanın Ermənistandakı səfirliyinin müşaviri Maksim Seleznyov deyib ki, Qafanda konsulluğun açılışı üçün hələ dəqiq tarix yoxdur, lakin Rusiya prosesi sürətləndirməyə çalışır: "Biz konsulluğu tez bir zamanda açmağa çalışırıq. Bugünlərdə Moskvadan olan həmkarlarımızla, Qafan meriyası ilə birlikdə bizə uyğun gələn bir neçə obyektə baxış keçirdik. Və demək istəyirəm, müəyyən həll yolları var ki, biz onlarla işləməyə davam edəcəyik".

Müşavir deyib ki, baş konsulluğun açılması ilə Rusiya bölgədə mövqelərini möhkəmlətməyi hədəfləyir. Amma Ermənistan xarici işlər nazirinin müavini Vahan Kostanyan tamam fərqli mövqe sərgiləyir: "Bəli, Rusiya Ermənistanın Zəngəzur vilayətinin Qafan şəhərində konsulluq açmaq istəyir. Amma bu məsələ müzakirə olunur və Rusiyanın İrəvandakı səfirliyi Qafanda konsulluq açmaq zərurətini izah etməlidir".

"Bakı-Xəbər" isə yazır ki, ötən ilin oktyabrında Qafanda İranın konsulluğu açılıb, amma İrəvan o zaman nədənsə İrandan heç bir izahat tələb etməyib. Amma Rusiyadan istəyir. Ekspertlərə görə, İrandan sonra Rusiyanın bu bölgədə konsulluq açması geosiyasi mübarizənin indi Zəngəzura keçdiyini göstərir. Konsulluq məsələsi prosesin hələlik diplomatik müstəvidə getdiyini göstərir. Belə görünür ki, bu dəfə Ermənistan Rusiyanın tələblərini geri çevirməyi düşünür. İrəvanla Moskva arasında ziddiyyət təkcə bununla məhdudlaşmır: Ermənistan xarici işlər nazirinin müavini Vahan Kostanyanın onu da bildirib ki, Azərbaycan və Naxçıvan arasındakı nəqliyyat kommunikasiyasına Rusiya sərhədçiləri yox, Ermənistan sərhədçiləri nəzarət etməlidir: "10 noyabr bəyanatında və Rusiya prezidentinin imzaladığı sonrakı fərmanda Rusiya FTX-nin nəzarət yox, monitorinq funksiyasından daha çox söhbət gedir".

**Söhbət məlum sənədin 9-cu bəndindən gedir. 9-cu bənddə deyilir:** "Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları həyata keçirir".

Göründüyü kimi, Ermənistan nəzarət sözünü monitorinq kimi izah etməkdə maraqlıdır. Rusiya baş nazirinin müavini Aleksey Overçuk da etiraf edir ki, kommunikasiyaların açılmasında hələ də həll olunmamış məsələ var, bu, Zəngəzurdan keçən yollarda insanların təhlükəsizliyini kimin təmin edəcəyidir. Yada salaq ki, Ermənistan, Rusiya və Azərbaycan baş nazirləri müavinlərinin üçtərəfli işçi qrupu formatında keçirilən görüşün yekunu olaraq, regionda nəqliyyat əlaqələrinin bloklanmasının bərpası ilə başlayacağını bəyan edən hərtərəfli sənəd formalaşdırılıb. Üçtərəfli görüşdən sonra da rəsmi İrəvan bəyan edib ki, blokada aradan qaldırılacağı təqdirdə ərazisində sərhəd xidməti Ermənistan tərəfindən həyata keçirilməlidir. Moskva və Bakı Rusiya sərhədçilərinin Ermənistanda yola nəzarət etməsində təkid edir. İrəvan isə 10 noyabr razılaşmasının 9-cu bəndini təhrif edərək "monitorinq" ifadəsini leksikona gətirməyə can atır. Səbəb nədir? Niyə Rusiya FTX-nin yola kontrol etməsini istəmirlər? Burada ABŞ və ya İranın da təsiri ola bilərmi?

**Azad Vətən Partiyasının sədri Akif Nağının "Yeni Müsavat"a bildirdiyinə görə, Ermənistanın 9-cu bəndlə bağlı bu mövqeyi Qərbin sifarişini yerinə yetirməkdir. Partiya liderinin fikrincə, məqsəd Rusiyanı regiondan çıxarmağa hesablanıb:** "Ermənistan qorxa-qorxa bunu icra etmək istəyir, amma çox çətindir. Rusiyanın hərbi kontingenti bu ölkədədir, iqtisadi təsirləri var, sərhədləri rus hərbçiləri qoruyur, dəmiryol xətləri də Moskvanın mülkiyyətindədir, o baxımdan dirəniş göstərmək çox ağırdır. Ona görə Ermənistandan Rusiya əleyhinə zaman-zaman fikirlər səslənir, Rusiyanı narazı salmağa çalışırlar".

**A.Nağı bugünlərdə İşçi Qrupun toplaşdığını xatırlatdı:** "Overçuk məlumat verdi ki, Arazdəyən-Culfa-Mehri-Horadiz dəmiryol xətti bərpa ediləcək. Əslində mahiyyətcə Zəngəzur koridoru deməkdir, amma İrəvanı incitməmək üçün yolu belə adlandırırlar. Hər halda, Azərbaycan-Ermənistan normallaşma prosesi bu yoldan başlanacaq. Amma Rusiya nəzarət edəcək, ya yox, bəlli deyil. Sadəcə, Overçuk dedi ki, Azərbaycan tərəfdən bizim qanunlar, Ermənistandan onlara aid qanunlar işləyəcək. Ermənilərin nəzarət-keçid məntəqəsinə də ruslar kontrol etməliydi, İrəvan bundan da qaçır. Amma bizə sərf edir, Rusiya ilə Ermənistan nə qədər bir-biri ilə qarşıdurmada olsalar yaxşıdır".

**Siyasi şərhçi Əziz Əlibəylinin sözlərinə görə, yol məsələsi artıq ümumi probleme çevrilib. Ekspert nəqliyyat kommunikasiyalarının açılması ilə bağlı kontrolun kimdə olması uğrunda rəqabət getdiyini düşünür:** "Əvvəlcə istənilirdi ki, Azərbaycanla Ermənistanın birgə nəzarəti təşkil olunsun. Amma idarəetmə rejimi Ermənistana aid olmalıdır. Ümumi gedişat isə göstərir ki, Rusiya kontrol etməlidir. İrəvan indi bu ideyaya qarşı çıxır. Lakin Ərdoğanın Bakı səfərindən sonra onlara da məlum oldu ki, Azərbaycan və Türkiyə dəhlizi açmaqda qətiyyətlidir. Ona görə proses özünü çox gözlətmədi və Arazdəyəndə dərhal Amerika layihəsi ortaya çıxdı, Hindistan belə prosesə cəlb edildi. Məqsəd Rusiyanın nəzarəti olmasın, olsa belə minimum olsun. Azərbaycan burada hər hansı qəbahət görmür və məsələyə Rusiya-Türkiyə razılaşmasının bir hissəsi kimi də baxmaq olar".

❑ **Emil SALAMOĞLU**
**"Yeni Müsavat"**

# Avropa Birliyi regiona yeni "revizor"lar göndərir - müəmmalı qərar

## Brüssel Azərbaycanla münasibətlərə xələl gətirəcək addımlara gedəcəkmi?; emissarların Azərbaycan ərazisinə də soxulmaq cəhdləri sezilir



**Avropa Birliyinin (AB) Ermənistandakı mülki missiyasının şəxsi heyətinin sayının 23 nəfər artırılması planlaşdırılır. Artıq vakansiyalar elan olunub. "Yeni Müsavat" bildirir ki, bu barədə AB-nin rəsmi internet səhifəsində məlumat yerləşdirilib.**

Məlumata görə, missiyanın yeni üzvlərinin Dərələyəzin İstisu (Cermuk), Keşişkənd (Yeqnadzor), Karvansaray (İcevan), Qafan və Martuni rayonunda fəaliyyət göstərməsi nəzərdə tutulub. Qeyd edək ki, Azərbaycanın keçmiş Dağlıq Qarabağ bölgəsindəki keçmiş Martuni, indiki Xocavənd rayonundan söhbət getmir. Martuni Qərbi Azərbaycanda, Göyçə vilayətində yer adıdır və erməniləşdirilmiş Azərbaycan ərazisidir.

Xatırladaq ki, AB-nin missiyası bu ilin aprel ayından Ermənistanda fəaliyyətə başlayıb. Hazırda şəxsi heyətin elan edilən rəsmi sayı 100 nəfərdir. Missiyanın Azərbaycanla həmsərdhəd bölgələri az qala üzük qaşı kimi mühasirəyə almaq cəhdi təbii ki, birmənalı qarşılana bilməz. Avropa İttifaqının müşahidə missiyasının hər iki ölkəyə göndərilməsi barədə təşəbbüs qaldırarkən Azərbaycan buna etiraz etmişdi. O zaman Ermənistan israrla öz ərazisində Avropa çinovniklərinin yerləşdirilməsinə cəhd göstərdi və əvvəlcə iki aylıq Ermənistana gələn heyətin sonradan iki illik burada qalması, həmçinin sayının artırılması rəsmiləşdirildi. Bu, Ermənistanın özünüxilas düsturu kimi düşünülmüşdüsə də, Avropa İttifaqı və digər Qərb çevrələri də bölgəyə soxulmaq fürsəti əldə etmiş oldular. İyunun 21-də Avropa İttifaqının Ermənistandakı missiyasının Zəngəzur aeroportunda toplaşması və Laçın postuna yaxın ərazidə müşahidə məntəqəsi qurmaq barədə anlaşmanın anonsunu vermələri də sağlam niyyətdən xəbər vermir. Ermənistan Naxçıvanla sərhəddə ABŞ-ın metallurgiya zavodu tikməsinə, Qafanda əvvəlcə İran, indi isə Rusiya konsulluqlarının açılmasına yaşıl işıq yandırıb. Növbəti qərar Avropa İttifaqı müşahidəçiləri ilə bağlıdır və onlar Laçın sərhəd qapımızadək gəlirlər. Burada sağlam niyyət ola bilməz. Həmçinin hələ sərhədlərin delimitasiya və demarkasiyası barədə anlaşma yoxdur. Növbəti üçtərəfli görüş gələn həftə ABŞ-da olacaq. Amma baş nazir Nikol Paşinyan 22 iyunda növbəti dəfə Azərbaycana ünvanlı iftiralar səsləndirib. Beləliklə, ABŞ-ın metallurgiya zavodu üzərində qaldırılan Amerika bayrağının, həmçinin digər sərhədlərdəki Avropa Birliyi bayrağının kölgəsində gizlənməklə proseslərdən uduşlu çıxmağa çalışır.

Düzdür, erməni cəmiyyəti də Aİ missiyasından narazıdır. Onlar deyirlər ki, Ermənistanın təhlükəsizliyinin təmin edilməsi adı altında Aİ regionda möhkəmlənir, üstəlik, kəşfiyyat məlumatları toplayır, habelə missiyanın vəziyyətlə bağlı Bakını məlumatlandırması xəbərindən də ciddi narazıdırlar. Erməni müxalifəti isə Aİ ilə Ermənistan arasında hələ də heç bir hüquqi baza, İrəvanla ikitərəfli razılaşma olmadığı faktını da qabardır. Zod və Dığ istiqamətində toqquşmalar baş verərkən Aİ missiyasının aradan çıxması faktı da erməniləri qəzəbləndirib.

**AB-nin müşahidəçi missiyası ilə Azərbaycan arasında bu istiqamətdə açar fiqur Aİ-nin region üzrə xüsusi nümayəndəsi Toivo Klaardır. Aİ-nin Ermənistandakı Monitorinq Missiyasının rəhbəri Markus Ritter də bu yaxınlarda verdiyi müsahibəsində bunu təsdiqləmişdi. M.Ritter deyib ki, sərhəd bölgəsində patrul aparmaqla bağlı planları haqda bir həftə öncə Bakıya məlumat verirlər.** "Bu məlumatlar Aİ-nin region üzrə xüsusi nümayəndəsi Toivo Klaar vasitəsilə ötürülür. Məqsəd anlaşılmazlığın və xoşagəlməz hadisələrin qarşısını almaqdır. Bizim Azərbaycanla ünsiyyətimiz bu cür qurulur", - missiyanın rəhbəri deyib.

**Maraqlıdır ki, Klaar bugünlərdə Bakıda olub və danışıqlar aparıb. Məlumdur ki, Prezident İlham Əliyev Toivo Klaar vasitəsilə missiyanın Ermənistanın şimalındakı Azərbaycan anklavlarına səfər etməsi xahişini çatdırıb. Toivo Klaara da deyib ki, bu kəndlər delimitasiya-demarkasiya prosesinin bir hissəsidir.** "Eksklavlar hər iki tərəflə müzakirə olunub və onların sərhəd danışıqlarında potensial problemə çevrilə biləcəyi üçün missiyanın oraya səfəri vacib hesab olunub", - Klaar qeyd edib. Amma indi AB missiyası gözlənilmədən dəqiqləşdirilməyən, şərti sərhədlər boyunca bir missiya üçün vakant yer elan etməsi maraq doğurur, həmçinin narahatlıqları artırır. Bəs Kərki kəndi, yaxud Qazağın kəndləri? Bu məsələlər Bakı ilə razılaşdırılıbmı? Eyni zamanda AB-nin Azərbaycan ərazisinə missiya göndərməsi istiqamətində də iştahlı açıqlama və çağırışlar vaxtaşırı ortaya çıxır. Ermənistan hər vəchlə buna nail olmağa çalışır. Eyni zamanda separatçılarla birbaşa əlaqəsi kəsilən avropalı emissarlar da çox canfəşanlıq edirlər.

**Deputat Ceyhun Məmmədov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Avropa Birliyinin mülki missiyası bir müddətdir Azərbaycan-Ermənistan sərhədində müşahidələrini davam etdirir:** "Əslində Ermənistan hakimiyyəti və cəmiyyəti bu missiyaya böyük ümid bəsləyirdi. Ancaq Prezident İlham Əliyevin qətiyyətli və prinsipial mövqeyi bütün bu ümidləri puça çıxardı. Ermənistan anlamalıdır ki, onun nicatı Azərbaycanla konstruktiv danışıqlardadır". **Mülki missiyanın Azərbaycanın Qarabağ bölgəsində, konkret olaraq Xocavənddə fəaliyyətə başlaması barədə iddialara gəldikdə, millət vəkili əminliklə bildirdi ki, bu, Azərbaycanın icazəsi olmadan baş tuta bilməz:** "Ermənistan uzun müddətdir buna çalışırdı. Əsas hədəf mərhələli şəkildə mülki missiyanın bura daxil olması və Rusiya sülhməramlılarının Qarabağdan çıxarılmasıdır. Avropa İttifaqı və Ermənistan unutmamalıdır ki, bu ərazilər Azərbaycan əraziləridir. Burada yaşayan ermənilər də Azərbaycan vətəndaşlarıdır. Azərbaycanın icazəsi olmadan bura heç kim daxil ola bilməz".

Yuxarıda qeyd etdiyimiz kimi, Ermənistan Arazdəyən istiqamətində ABŞ-a zavod tikmək imkanını tanıyır, Qafanda İran və Rusiya konsulluğuna yaşıl işıq yandırır, Laçın postu yaxınlığında isə Aİ müşahidəçilərini yerləşdirir. Sərhədlər dəqiqləşdirilmədiyi halda, bu üsullarla ətrafını çəpərləyir. Kərki və digər əraziləri qaytarmamağa çalışır. Bəs düşmənin bu məkrli planı onun işinə yarayacaqmı? **C.Məmmədov:** "Düşünürəm ki, xeyr. Beynəlxalq hüquqa əsasən bu ərazilər bizimdir, gec-tez bizə qayıdacaq. Bu prosesin qabağın heç kim ala bilməz. Ermənistan eyni işləri Qarabağda da edirdi. Nəticə göz qabağındadır".

**Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri, politoloq İlyas Hüseynov hesab edir ki, Avropa İttifaqının regiona mülki missiya göndərməsi Ermənistanı ilhamlandırsa da, zaman-zaman məyusluğa da uğradıb:** "Azərbaycanla şərti sərhəddə mövqelərimizi tez-tez atəşə tutan Ermənistan Avropa İttifaqının missiyasından qalxan kimi istifadə etməyə çalışır. Eskalasiya ilə Aİ-nin missiyasının tərkibini genişləndirir və müşahidə məntəqələrinin sayını artırmağa cəhd edir". **İ.Hüseynov da hesab edir ki, Azərbaycan ərazisinə hansısa missiyanın yeni üzvlərinin cəlb edilməsi istəyi mütləq Azərbaycan dövləti ilə razılaşdırılmalıdır, bunun alternativi yoxdur:** "Aİ Ermənistanın əli ilə Rusiyanın mövqelərinin regionda zəiflədilməsinə çalışsa da, regionumuzun geosiyasi mübarizə poliqonuna çevrilməsi arzuolunan deyil". **Politoloq qeyd etdi ki, Ermənistan maksimum dərəcədə regiona müxtəlif geosiyasi aktorları cəlb etmək istəyir:** "Rəsmi İrəvan Qarabağ erməniləri ilə danışıqlarda beynəlxalq mexanizmin təmin olunmasını görmək niyyətindədir. Ermənistan açıq anti-Rusiya siyasi kursu onlar üçün fiasko ilə nəticələnə bilər və sanki bu arzunu da reallaşdırmaq istəyirlər".

**Politoloq Məhəmməd Əsədullazdə isə qeyd etdi ki, Avropa İttifaqının mülki missiyasını Ermənistan-Azərbaycan şərti sərhədində yerləşməsi effektli nəticə vermədi:** "Ermənistan istədiyi vaxt hərbi təxribatlara əl atır və danışıqları sabotaj edir. Demək olar ki, Avropa İttifaqının mülki missiyasını Ermənistan tərəfindən də Azərbaycanla əməkdaşlıqda günahlandırırlar. Ermənistan hesab edirdi ki, Avropa İttifaqının mülki missiyasını ölkəyə gətirməklə Azərbaycana qarşı Avropa İttifaqında mənfi rəy formalaşdıracaq. Azərbaycanı təcavüzkar kimi qələmə verdirəcək. Amma proseslər tam əksinə oldu. Ermənistan rəhbərliyi çalışır ki, beynəlxalq və regional qurumlar onların anti-Azərbaycan siyasətində yer almalı və işğalı dəstəkləməlidirlər. Avropa İttifaqı ilk növbədə iki ölkə arasında vasitəçidir. Belə bir qurumun qərəzli mövqe tutması Brüsselin siyasətinə kölgə sala bilər".

**M.Əsədullazadə də bu mövqedədir ki, Aİ-nin Azərbaycan ərazisinə hansısa müşahidə missiyası göndərmək istəməsi və bununla əlaqədar vakansiya elan etməsi sıradan bir proses deyil:** "Azərbaycan nəzarət buraxılış məntəqəsi qurub və dövlətimiz razılıq verməlidir ki, həmin missiya sərhəddən keçsin. Azərbaycanın bu fonda rəsmi mövqeyi yoxdur. Bu mənada ölkəmizin ərazisinə Aİ müşahidəçilərinin gəlmək planı qəbuledilməzdir! Buna şərait yaratmaq və icazə vermək olmaz. Bura Azərbaycan ərazisidir. Azərbaycan razı olsaydı, sərhəddə müşahidə missiyasını yerləşdirərdi. Düşünürəm ki. Azərbaycan razı olmamalıdır. Hər halda, rəsmi Bakı açıqlama verməlidir".

Məsələ ilə bağlı XİN-in mövqeyini almaq istiqamətində israrlı cəhdlərimiz nəticə vermədi. Yəqin ki, rəsmi Bakı mövzu ilə bağlı mövqeyini açıqlayacaq. Hər halda, Brüssel unutmamalıdır ki, danışıqlarda moderatorluq edən tərəflərdən biridir və hansısa ehtiyatsız davranışlar, qərarlar ona olan etimadı zədələyə bilər...

❑ **E.PAŞASOY,**
**"Yeni Müsavat"**

# Erməni diversantların məhkəməsi-onları hansı ağır cəza gözləyir?

## Rəsmi İrəvanın mövqeyindən də belə anlaşılır ki, iki əsgərimizi Bakıda cəza çəkən diversantlarla dəyişmək təklifi ediləcək

**Ermənistanda məhkəmə azərbaycanlı hərbçi Hüseyn Axundovu 20 il müddətinə azadlıqdan məhrum edib.**

Hüseyn Axundov digər əsgər Aqşin Bəbirovla birlikdə aprel ayında əlverişsiz hava şəraitində Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonu istiqamətində azaraq Ermənistan ərazisinə keçiblər. Əsgərlərin hər ikisi Ermənistanda həbs edilib və onlara “silahla sərhədi qanunsuz keçmək” maddəsi ilə ittiham irəli sürülüb. Axundov həm də Zəngəzur mis-molibden zavodunun gözətçisini öldürməkdə ittiham olunub. Bundan əvvəl Bəbirov 11,5 il müddətinə azadlıqdan məhrum edilib.

Ermənistanın baş naziri Nikol Paşinyan ötən ay deyib ki, iki Azərbaycan hərbçisinin ekstradisiyasını müzakirə etməyə hazırıq. “Ermənistan iki Azərbaycan əsgərinin ekstradisiyasını müzakirə etməyə hazırdır, lakin bu proses birtərəfli ola bilməz”, - deyə Paşinyan bildirib.

Yada salaq ki, mayın 26-da sərhədin Zəngilan rayon istiqamətində iki erməni diversant - Harut Hovagimyan və Karen Qazaryan saxlanılıb. Həyasızlığa bax ki, Ermənistan İstintaq Komitəsi ordumuzun Zəngilan istiqamətində yaxaladığı və barələrində cinayət işləri başlanmış erməni diversantlarla bağlı “adam oğurluğu” maddəsi ilə “cinayət işi” başlayıb. Üstəlik, Beynəlxalq Məhkəməyə müraciət ediblər. Azərbaycan tərəfi sərhəd bölgəsində ayrı-ayrı vaxtlarda saxladığı 10-a yaxın erməni hərbçisini və mülki şəxsi qeyd-şərtsiz, heç bir şərt olmadan geri verib.

Azərbaycan Prezidenti mayın 14-də Brüsseldə keçirilən üçtərəfli görüşdə bunun dözülməz olduğunu deyib həmçinin bildirib: “Əgər siz bu razılaşmanı pozursunuzsa, bunun acısını siz özünüz çəkəcəksiniz”.

**Mayın 28-də isə Prezidentin Laçında azərbaycanlı əsirlərlə bağlı dediyi sözlər erməni tərəfinə son xəbərdarlıq xarakteri daşıyırdı. Sitat:** “İkinci Qarabağ müharibəsi başa çatandan sonra Ermənistanla Azərbaycan nümayəndələri belə bir razılığa gəliblər, əgər kimsə yolu azsa, əgər belə bir hal baş verərsə, maksimum iki günə o adamlar qaytarılmalıdır. Biz buna əməl edirdik. Onları maksimum iki gün saxlayıb, sorğu-suala tutub qaytarırdıq, mülki vətəndaşları da, hərbçiləri də. Görün, onlar nə etdilər?! Onlar, birincisi, yolu azmış hərbçilərimizi vəhşicəsinə döyüblər, qandallayıblar, ləyaqətini alçaldıblar, döyülmə anlarını videoya çəkiblər. Ondan sonra həbs ediblər və artıq məhkum ediblər. Bu, harada görünüb?”

Paşinyanın mövqeyindən də belə anlaşılır ki, onları Bakıda cəza çəkən diversantlarla dəyişmək təklif ediləcək. Bundan sonra nə olacaq? Ermənilər ələ keçirilən əsirlərimizi niyə qəsdən ağır maddələrlə ittiham edir? Erməni diversantlara da ağır cəza veriləcəkmi?



**“Bakı” Hüquq Şirkətinin rəhbəri Natiq Ələsgərov** “Yeni Müsavat”a deyib ki, Azərbaycan tərəfi həbs olunan erməni təxribatçılara, diversantlara qarşı humanizm prinsiplərindən irəli gələn cəzalar təyin edir. Bu, sərf Azərbaycanın sülhpərvərliyinin nümayişidir. Əslində isə erməni diversantlar ən sərt cəzaya layiqdir və gedişat onu göstərir ki, qarşı tərəf üçün diversantlarının həyatı maraqlı deyil: “Ötən il Azərbaycan ərazisində terror-təxribat və digər əməllər törətməkdə təqsirləndirilən erməni silahlı dəstələrinin 14 üzvünə hökm oxundu. Avakyan Qraç Arzumanoviç, Serobyan Geğam Samveloviç, Baqasyan Armen Yegizari, Qasparyan Qor Vaqramini, Sefilyan Kamo Karenoviç, Hakobyan Volodiya Vaçaqani, Asetryan Gevorq Norairoviç, Yenqoyan Sisak Qrişai, Petrosyan Albert Kamoyeviç, Sedrakyan Romik Misakini, Minasyan Aram Qarnikoviç, Minosyan Mkrtıç Simonoviç, Matesyan Edqar Vaçaqanoviç və Karapetyan Yuri Tiqranoviçin Azərbaycan ərazilərində törətdikləri, planlaşdırdıqları diversiya cinayətlərinə görə mühakimə olundular. Avakyan Qraç Arzumanoviç, Serobyan Geğam Samveloviçin 5 il, digərlərinin isə həmin maddə ilə 2 il azadlıqdan məhrum edildilər. Bu məhkəmə prosesi başa çatar-çatmaz erməni diversantlara humanist cəzalar təyin olunması sosial şəbəkələrdə müzakirəyə çıxarıldı.

Məhkəmə hüquqi aspektləri əsas tutaraq hökm verdi. Amma heç şübhəsiz ki, indiki həssas durumda məsələyə həm də siyasi və regional aspektlərdən yanaşma da doğru sayılır. Məhkəmədə Ermənistanın hərbi-siyasi rəhbərliyinin cinayətkar əməlləri, ölkəmizə qarşı davamlı olaraq apardıqları terrorçuluq, təxribat hərəkətləri təkzibedilməz sübutlarla təsdiq edildi. Məhkəmə zamanı şahid və təqsirləndirilənləri ifadəsi bunları bir daha sübuta yetirdi. Məhkəmə hökmü o deməkdir ki, Ermənistan beynəlxalq arenada artıq rəsmi sənədlə, sübutlarla terrorçu dövlət kimi xarakterizə ediləcək".

**Hüquqşünas deyib ki, cinayət işində Ermənistanın hərbi-siyasi rəhbərliyinin Azərbaycana qarşı planlaşdırdığı, bəzilərini həyata keçirməyə cəhd etdiyi, qismən və müəyyən dərəcədə reallaşdıra bildiyi terror mahiyyətli cinayət əməlləri tam sübut olunub:** “Ən vacib məqam ondan ibarətdir ki, Ermənistan hərbi-siyasi rəhbərliyinin Azərbaycana qarşı törətdiyi və sübut olunan, erməni diversantların dilindən səslənən ifadələrlə təsbit edilən cinayət əməllərinə görə ayrıca bir cinayət işi başlanacaq. Belə ki, bunu üçün prokurorun vəsatəti əsasında məhkəmə xüsusi qərardad çıxarıb və prokurorluğa göndərilib.

Paralel olaraq məhkəmədə mühakimə olunan, hökm oxunan şəxslərə rəhbərlik etmiş Ermənistan vətəndaşı, polkovnik-leytenant Arsen Qazaryan və digər vəzifəli şəxslər barəsində beynəlxalq axtarış elan edildi.

Həmçinin məhkəmə prosesinin gedişində də aşkara çıxdı ki, ermənilər hərbi xidmətə getmək, döyüşmək istəməyiblər. Bunu diversantlar ifadələrində təkrar-təkrar, xüsusi vurğu ilə deyir və çalışırdılar ki, protokola düşməsinə nail olsunlar. Onlar məhkəmə iclaslarında verdikləri sərbəst ifadələrində deyirdilər ki, onlar Qarabağda xidmətə zorla, ölümlə, həbslə təhdid edilərək göndəriliblər. Ermənistanın siyasi-hərbi rəhbərliyi hərbi xidmətdən yayınmaq adı ilə həmin şəxsləri 8 ildən 12 ilədək azadlıqdan məhrum etmə cəzası ilə təhdid etməklə məcburi hərbi xidmətə, döyüşə göndərib. Hətta diversantlar imdad diləyərək bildirirdilər ki, Azərbaycan xalqına və Ordusuna qarşı hər hansı cinayət törətmək niyyətləri, istəkləri olmayıb, buna zorən, ağır təhdidlərlə məcbur ediliblər. Mühakimə olunan ermənilərlə bağlı bir məqam da diqqəti cəlb etdi. Onların anket məlumatları dəqiqləşdirilərkən üzə çıxırdı ki, demək olar ki, hamısı işsiz, ağır sosial şəraitdə yaşayan ermənilərdir. Bəziləri fəhləlik, ağır işlərdə çalışmaq üçün dəfələrlə xarici ölkələrə gediblər, minimum ehtiyaclarını ödəmək üçün ən çətin işləri görüblər. Məhkəmələrində diversantlar faktiki olaraq bədbəxt erməni xalqının nümayəndələri olduqlarını ortaya qoydular, onlar hətta bunu göz yaşları içində özləri etiraf edirdi.

Azərbaycan dövləti hər zaman bəyan edib ki, bizim məqsədimiz erməni xalqı ilə düşmənçilik aparmaq deyil. Ermənistanın hərbi-siyasi canilərinin cəzalandırılmasına və əməllərinin ifşasına nail olmaqdır. Həmçinin qalib Azərbaycan öz məğrurluğunu, eyni zamanda humanizmini əsirgəməyib. Buna baxmayaraq, Ermənistan siyasi-hərbi rəhbərliyi diversantları ölkəmizə göndərməkdə davam edir".

❑ **E.MƏMMƏDƏLİYEV, “Yeni Müsavat”**

## Ermənilər qaşınır - 4 rayonumuz atəş altında

**Ermənistan silahlı qüvvələrinin bölmələri Gorus rayonunun Brun yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Laçın rayonunun Əhmədli yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.**

Bu barədə Müdafiə Nazirliyindən məlumat verilib.

Bundan başqa, Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri tərəfindən Azərbaycan Ordusunun Xocavənd, Şuşa və Xocalı rayonları istiqamətlərində yerləşən mövqeləri də atıcı silahlardan fasilələrlə atəşə tutulub.

Bölmələrimiz tərəfindən qeyd olunan bütün istiqamətlərdə adekvat cavab tədbirləri görülüb.

Həmçinin qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri kənd təsərrüfatı işləri adı altında ordumuzun Ağdam və Xocalı rayonları istiqamətlərində yerləşən mövqelərinin qarşısında uzunmüddətli fortifikasiya qurğularını quraşdırmağa cəhd göstəriblər.

Azərbaycan Ordusunun bölmələri tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində aparılan mühəndis işləri dərhal dayandırılıb.

## İranla sərhəddə atəş səsləri

**Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının “Lənkəran” sərhəd dəstəsinin xidməti ərazisində sərhəd naryadının sayıqlığı nəticəsində narkotik vasitələrin qaçaqmalçılıq yolu ilə İran İslam Respublikasından Azərbaycan Respublikasına keçirilməsinin qarşısı alınıb.**

Bu barədə Dövlət Sərhəd Xidmətindən (DSX) məlumat verilib.

Sərhəd naryadının qanuni tələblərinə məhəl qoymayan sərhəd pozucularına qarşı “Dövlət sərhədi haqqında” Azərbaycan qanununun tələblərinə uyğun olaraq xəbərdarlıq məqsədilə silah tətbiq edilib. Sərhəd pozucuları üzərindəki bağlamaları atıb, relyefin mürəkkəbliyindən istifadə edərək geriyə, İran ərazisinə qaçıblar.

Ərazidə aparılmış sərhəd axtarışı və əməliyyat tədbirləri nəticəsində ümumi çəkisi 12 kq 760 qram narkotik vasitə (10 kq 705 qram marixuana, 2 kq 55 qram tiryək) aşkar olunub.

YENİ MÜSAVAT
N 109 (8245) 23 iyun 2023

**Qafqaz Müsəlmanları İdarəsi (QMİ) Qazılar Şurası Qurban bayramı ilə bağlı fətva verib. Fətvada deyilir ki, AMEA Şamaxı Astrofizika Rəsədxanasının 2023-cü il hesablamalarına əsasən, Azərbaycan üfüqündə Hilalın görünməsinə uyğun olaraq builki Qurban bayramı Zilhiccə ayının 10-na - Miladi təqvimlə 28 iyun tarixinə təsadüf edəcək.**

# Qurban bayramı ilə bağlı fətva verildi

## İslamın ən böyük bayramına bir neçə gün qalıb, qurbanlıq heyvanların qiymətləri...



Qeyd olunub ki, şəriətə uyğun olaraq Qurban kəsimi həmin tarixdən başlayaraq 3 gün davam edə bilər. İyun ayının 28-də isə məscidlərdə Bayram namazı qılınacaq.

İslam dinində ən böyük bayram hesab olunan Qurban Hicri-Qəməri təqvimlə Zilhiccə ayının 10-da qeyd olunur. "Qurban" ərəb dilindəki "qurbə" sözündən yaranıb, tərcümədə yaxınlaşma deməkdir. Yəni insanın əsas qayəsinin məhz Allaha yaxınlaşmaq, onun razılığına nail olmaq olduğuna işarə edir. Qurban bayramının daha bir vacib atributu bayram namazıdır. Bayram günü müsəlmanlar Həcdə olub-olmamasından asılı olmayaraq, 2 rükətli bayram namazı qılır. Yeri gəlmişkən, bayram günü qurban kəsmək Həcc ziyarətində olanlar üçün vacibdir. Həcc ziyarətinin bir mərhələsi olaraq zəvvarlar Həzrət İbrahimin məşhur hadisində olduğu kimi, Zilhiccə ayının 10-da Mina vadisinə çıxır və burda qurban kəsmə mərasimi icra olunur. Qurani-Kərimdə qeyd olunur ki, İbrahim peyğəmbər Allahdan gələn hökmü icra etmək üçün oğlu İsmayılı Mina dağına qurban kəsmək niyyəti ilə aparır. Ancaq Allah İbrahimə oğlunu deyil, əvəzində bir qoç qurban kəsməyi əmr edir. Bu hadisə İslam dinində peyğəmbərin ən qiymətli varlığı, yəni oğlu ilə imtahan edilməsi hadisəsi kimi təqdim olunur. Eyni zamanda bu hadisə qədim dövrlərdə bəzi xalqlarda olan insan qurban etmə əməlinin qadağan edilməsi, Allaha sonsuz itaətin simvolu kimi dəyərləndirilir. Ancaq qurban kəsmənin ən mühüm tərəflərindən biri yardımlaşmaqdır. Qurban kəsmək Həcc ziyarətində olanlara vacib, həcdə olmayan müsəlmanlar üçün isə bəyənilən əməl sayılır. Bayram günü harada olmasından asılı olmayaraq maddi imkanları yetərli olan müsəlmanlar şəriətin buyurduğu heyvanlardan birini Qurban niyyəti ilə kəsərək ehtiyaclı insanlara bağışlaya bilər. Qurban kəsmənin dinin digər məsələlərində olduğu kimi, özünün hökmləri, qaydaları var. Qurban bayram namazından sonra kəsilməlidir. İslam qaydalarına əsasən qurbanlıq heyvan dəvə, inək, qoyun, qoç ola bilər. Qurbanlıq dəvənin yaşı 5, inək 2, qoyunun yaşı isə 1 ildən az olmamalıdır. Qurbanlıq heyvan sağlam, qüsursuz olmalıdır. Kor, axsaq, qulağı, quyruğu və ya buynuzu kəsik olmamalıdır. Bundan əlavə, heyvan gərək arıq və çox qoca olmasın. Hədislərdə buyurulur ki, "4 şey (eyib) var ki, qurbanlıqda (heyvanda) olmamalıdır: açıq-aydın tay göz olan, açıq-aydın xəstə olan, axsadığı açıq-aydın görünən topal heyvan və təmizlənməsi çətin olan arıq heyvan. Yaxşı olar ki, qurban kəsən şəxs qurbanlığın 1/3-ni öz ailəsinə, 1/3-ni yoxsul və ehtiyacı olan qonşularına, qohumlarına, yaxınlarına və 1/3-ni isə ehtiyacı olub istəyən imkansızlara versin. Qeyd etmək lazımdır ki, bir sıra digər mövzularda olduğu kimi, qurban bayramı ilə bağlı da bəzi neqativ elementlər qeydə alınır. Qurban bayramının məqsədi insanın Allaha yaxın olmaq, bəndəlik vəzifəsi kimi inşalara yardım etmək, İbrahim (ə) ənənəsində olduğu kimi, ac, ehtiyaclı insanları doyurmaqdır. Qurban bir "ət bayramı" deyil, daha çox yardımlaşmaq, ehtiyaclılara kömək etmək günüdür. Bu səbəbdən də bəzi müsəlman ölkələrində olduğu kimi, kütləvi ət kəsmək, israfa yol vermək bəyənilmir. Daha çox ehtiyaclı insana əl tutmaq, ən azı bayram günü süfrə açmasına dəstək olmaq lazımdır. Bu böyük bayramın hədəfi də budur.

**İlahiyyatçı Rəsul Mirhəşimli "Yeni Müsavat"a bildirdi ki, Qurban yaxınlaşmaq və Allaha yaxınlığı vəsilə qılan anlamına gəlir. O qeyd edib ki, Qurban mal və candan fədakarlıq mənası daşıdığından Allaha yaxınlaşmağın ən mühüm vasitələrindəndir:** "Qurban bayramı münasibətilə xalqımızı, xüsusilə şəhid ailələrini və Qarabağ savaşından keçmiş bütün soydaşlarımızı təbrik edirəm. Qurban bayramı İslam dinində iki vacib olan bayramdan biridir. Bu bayram dinimizdə Hz.İbrahim (ə) ənənəsini yaşatmaq baxımından xüsusi önəm daşıyır. Qurban bayramı ilə hökmlər hicrətin ikinci ilində nazil olub. Bu bayramın hikmətlərindən biri də Həcc ibadətinin imkanı olan müsəlmanlara vacib olması ilə bağlıdır. Qurban kəsmə maddi fədakarlıq və hər cəhətdən ehsan tələb edən bir ibadət olduğu üçün insan ruhu üçün çətin əməllərdən hesab olunur. Bu səbəbdən Allah Rəsulu (s) müsəlmanların əməllərinin fəzilət və savabını nəzərə alaraq onlara xoşməramlı olmağı tövsiyə edir. Qurban bayramının əməlləri içərisində vacib olan şərtlərdən biri də Həcc ziyarətində olan müsəlmanların qurban kəsməsidir. Dinimizin göstərişlərinə görə, Həcc ziyarətində olmayan müsəlmanlar üçün qurban kəsmək vacib sayılmır. Ümumiyyətlə, Həcc və bu ibadətin əsasını təşkil edən qurban kəsmək özündə bir çox simvol və rəmzləri ehtiva edir. Həcc tərk etməklə başlayır. İnsan əvvəlcə evini, ailəsini tərk edir. Tərk etdiklərini Allaha əmanət edir. Sonra Vətəni tərk edirsən. Miqat yerinə çatan zəvvar malını, geyimini tərk edir, qalır iki parçadan ibarət ehramın içərisində. Bax, elə buradaca kiçik Qiyamət deyilən yaşamın təzahürləri meydana çıxır. Əmri yalnız Alladan alan insan, Təlbiyə adlanan duanı oxuyaraq, "Buyur, Allahım, buyur!" nidası ilə üzünü Məkkəyə tutaraq, Yaradanın evinə doğru yol alır. Bundan sonrakı bütün ibadətlər elə həmin simvol və rəmzlərin ardıcıllığı ilə davam edir. Bütün ibadətlərin fəlsəfəsi Allahdan başqasına qul olmamağın hikmətini öyrədir. Elə ibadət də anlam olaraq qulluq mənasını verən sözdür. Yalnız Allaha qulluq etdiyi üçün yalnız Allahdan istəyənlər həyatı boyu bu hikmətlə yaşayar, anlayar ki, yalnız Rəbbinin hüzurunda əyilmək insanı ucaldan əməldir. Qurban bayramı başqa bir cəhəti ilə yardımlaşmağı təlqin edir. Qonşusu ac olduğu halda tox yatanın İslam ümmətindən olmadığı xəbərdarlığına uyan hər kəs bu hikməti həyatının fəlsəfəsi anlamına gətirə biləcək. Allah dinimizdə mühüm yeri olan bu bayramın hikmətini xalqımızın üzərində daim etsin!"

Bayramın müvafiq norma və qaydalar çərçivəsində təşkilinə dəstək verən nəzarət tədbirlərinin təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) bayram günlərində müvafiq qurumlarla birgə gücləndirilmiş iş rejimində fəaliyyətini davam etdirəcək. AQTA-dan bildirilib ki, Qurban bayramı günlərində qurbanlıq heyvan kəsimi və satışının müvafiq norma və qaydalara uyğun, rahat həyata keçirilməsi məqsədilə ölkə üzrə 138 ünvanda qurbanlıq heyvanların satışı və kəsimi xidmətləri təşkil olunacaq. Həmin satış məntəqələrində baytarlıq nəzarətindən keçmiş və sanitar-gigiyenik tələblər gözlənilməklə kəsilmiş qurbanlıq heyvanlar əhaliyə təqdim olunacaq. Bununla yanaşı, regionlarda Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi ilə razılaşdırılmaqla səyyar heyvan kəsimi çadırları quraşdırılaraq qurbanlıq heyvanların baytarlıq nəzarəti altında kəsimi və satışı həyata keçiriləcək.

O ki qaldı qiymətlərə, heyvan bazarında qiymətlər artıb. Satıcıların dediyinə görə, bayram öncəsi qiymətlərin daha da bahalaşacağı gözlənilmir. "Xəzər xəbər"in hazırladığı süjetdən bəlli olur ki, rayonlarda 17-18 kiloqramlıq qoyunların qiyməti 200-220 manatdır, daha əvvəl isə 250-260 manata satılırdı. 20-22 kiloluq toğlu 260-270 manata satılır. Lakin bu, rayonlarda olan qiymətlərdir. Bakıya gətirilən heyvanların qiyməti artır. Satıcılar bildiriblər ki, adətən qoca heyvanlar daha ucuz satılır.

❑ **Nigar HƏSƏNLİ,**
**"Yeni Müsavat"**

# Türkiyə lirə ilə bağlı tarixi qərar ərəfəsində

## Mərkəzi Bank ortodoksal pul siyasətinə geri qayıdır?




**Türkiyə Cümhuriyyəti Mərkəzi Bankı (TCMB) yeni sədrinin səlahiyyət müddəti ərzində ilk faiz qərarını açıqlayacaq. TCMB-nin faizini 8,50%-dən 25%-ə yüksələcəyi proqnozlaşdırılır. Beləliklə, Türkiyə Mərkəzi Bankı 16,5 faiz bəndi artım edə bilər. VTB-də minimal faiz dərəcəsi ilə nağd kredit 10.99%-dən Türkiyədə Mehmet Şimşəkin maliyyə naziri və Hafize Gaye Erkanın Mərkəzi Bankın sədri təyin edildikdən sonra bazarlarda ortodoks siyasətlərə (ənənəvi) dönüşün olacağı gözlənilir.**

Prezident Rəcəb Tayyib Ərdoğan bu ay verdiyi açıqlamada Şimşəkin TCMB ilə atacağı addımları "qəbul etdiklərini" demişdi. Ərdoğan əvvəllər yüksək faizə qarşıdır, hesab edir ki, yüksək inflyasiyanın səbəbi yüksək faizlərdir. İqtisadi nəzəriyyə görə inflyasiya yüksək olan zaman Mərkəzi Bank faizlərini artırmalıdır. Beləliklə, Türkiyədə lirəyə təsir edəcək tarixi qərar gözlənilir.

**İqtisadçı-alim Vüsalə Əhmədova mövzu ilə bağlı "Yeni Müsavat"a dedi ki, Türkiyə Mərkəzi Bankı sədrinin ilk pul-kredit siyasəti toplantısında uçot dərəcəsinin 8,5%-dən 25%-ə qaldırılacağı gözlənilir:** "Xanım sədrin təkrar ortodoksal pul siyasətinə geri qayıdacağı ilə bağlı proqnozlar çoxluq təşkil edir. Fikrimcə, faiz dərəcəsi ilk toplantıda 18-20% civarında, daha sonra iyul ayında baş tutacaq növbəti toplantıda isə 25% yüksəldilə bilər. Bu artımın sonuncu olub-olmayacağı da sual altındadır, faiz dərəcəsinin il sonuna qədər 30%-i keçəcəyi də istisna edilmir. 2021-ci ildən etibarən Türkiyə sərt pul-kredit siyasətindən yumşaq pul-kredit siyasətinə keçid etdi. Bu qərar Mərkəzi Bankın deyil, məhz Türkiyə hakimiyyətinin qərarı idi. 2021-ci ilin sentyabrından etibarən faiz dərəcəsinin 19%-dən 8,5%-ə endirilməsinin ardından, türk lirəsinin ucuzlaşması sıx valyuta satışları ilə tarazlaşdırılmağa çalışıldı. İyunun 2-nə olan məlumata görə, Mərkəzi Bankın xalis valyuta ehtiyatları 5,7 milyard dollara qədər azalaraq tarixin ən aşağı səviyyəsindədir.

Görünən odur ki, Türkiyə hakimiyyəti ölkədə inflyasiya və cari kəsirin yüksək olduğu bir vaxtda yumşaq pul-kredit siyasətinin həyata keçirilməsinin təhlükəli addım olduğuna inandırılıb. Əslində yumşaq pul-kredit siyasətinin əsas məqsədi xarici sərmayəni ölkəyə cəlb etməkdir. Hazırkı vəziyyətdə tək hərəkətlə faiz dərəcələrini inflyasiya səviyyəsində yüksəltmək də risklidir. Bir anda faiz yüksəldilərsə, bu zaman da mövcud investorlar ölkəni tərk edərlər, tənəzzül başlaya bilər. Çünki xarici sərmayədarlar üçün əsas amil stabillikdir. Məsələn, uçot dərəcəsi ilk addımda 30-40% artırılarsa, kredit faizləri o cümlədən də, depozit faizlərində yüksəlmə baş verəcək. Həmçinin kredit kartı və overdraft hesablarının aylıq faizləri də bir anda yüksələcək. Bundan əlavə, avtomobil və ev kredit faizlərində də artım olacaq. Belə bir vəziyyətdə insanlar xərcləməyə deyil, daha çox yığıma meyl edirlər, tədavüldəki pul kütləsi azalır. Təbii ki, bu zaman bir müddət inflyasiyanın geriləməsi mümkündür. Ən optimal variant dediyim kimi, inflyasiyanı aşağı salana qədər faizlərin az-az artırılmasıdır".

❑ **Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 109 (8245) 23 iyun 2023

# Eldar Mahmudovun kabinetində itən 2 qızıl keçi - sensasion təfərrüat

## Sahibkarı əntiq malların qaçaqmalçılığında ittiham edərək 500 min manatını alıblar, sonra həmin əşyalar da cinayət işindən yoxa çıxıb



**"MTN işi" üzrə zərərçəkənlərin bir qismi ölkə başçısına müraciət edib. Onlar "Yeni Müsavat"a deyiblər ki, Eldar Mahmudov və başının dəstəsi tərəfindən onlara qarşı törədilən cinayətin tam və hərtərəfli araşdırılmasını istəyirlər. Bunun üçün apelyasiya şikayəti vermə müddətinin bərpa olunmasına dair məhkəməyə şikayət təqdim ediblər.**

**Mahmudovun Ağır Cinayətlər Məhkəməsindəki dostları...**

**Zərərçəkən Zaur Əliyev deyir ki, onların şikayətinin araşdırılmasının qarşısının alınmasına yönəlik addımlar atılır:** "Prezidentin qətiyyətli göstərişlə Eldar Mahmudovun Milli Təhlükəsizlik Nazirliyindəki mütəşəkkil cinayətkar quldur dəstə darmadağın edildi, Eldar Mahmudov nazir vəzifəsindən çıxarıldı. Çox təəssüf ki, Eldar Mahmudovun mütəşəkkil cinayətkar quldur dəstəsinin bütün dövlət orqanlarına, xüsusən də Bakı Ağır Cinayətlər Məhkəməsindəki komanda üzvləri bu gün də fəaliyyətdədir. Hər kəsə bəllidir ki, Eldar Mahmudovun kadrları olan müstəntiqlər Bakı Ağır Cinayətlər Məhkəməsinə, Bakı Apelyasiya Məhkəməsinə və digər instansiyalara hakim təyinatı alıblar. Biz zərərçəkənlər illərlə Eldar Mahmudovun MTN-də qurduğu cinayət yuvasının dağıdılmasını gözləmişik ki, bizə qarşı cinayətlərin araşdırılmasına nail olaq. MTN-in dağıdılmasından 7 il ötməsinə baxmayaraq, biz tam olaraq hüquqlarımızı bərpa edə bilməmişik. Təsəvvür edin ki, barəmizdəki saxta məhkəmə hökmündən şikayətvermə müddətinin a bərpa edilməsinə dair şikayət vermişik. Həmin şikayətimiz sirli şəkildə Eldar Mahmudovun dövründə MTN-də çalışmış, elə o dövrdə Bakı Ağır Cinayətlər Məhkəməsinə hakim təyin olunmuş Telman Hüseynovun icraatına verilib. Bu isə şikayətin nəticəsini bəri başdan bəlli edir. Şikayət təmin olunmayacaq!"

**"Məndən 2 keçiyə görə 500 min manat istədilər"**

**2010-cu ilin martında Zaur Əliyevlə birgə həbs olunan Əhməd Mirzəyev bildirib ki, onu şərləməklə saxta ittihamlar irəli sürüblər:** "Ortaya 2 qızıl keçi, bir də daş balta atdılar. Dedilər ki, bu əşyalar əntiq əşyalardır və guya mən mütəşəkkil dəstə üzvü olaraq həmin əşyaları ölkəyə gətirmişik. Məndən 2 keçiyə görə 500 min manat istədilər. Pulu verməkdən imtina etdim. Saxta cinayət işi uydurdular və məni həbs adıyla girov saxladılar. Bir aya yaxın MTN-in istintaq təcridxanasında qanunsuz saxladılar. Ortaya daşdan yonulmuş, mənə hədiyyə olunan suvenir baltanı, yanına da 2 ədəd qızıldan olan keçiləri qoydular. Yazdılar ki, guya balta da, keçilər də qədimi əntiq əşyadır. Sürücümü də tutdular, bununla da bizi mütəşəkkil dəstə kimi təqdim etdilər. Mətbuata, televiziyaya yalan məlumat ötürdülər ki, guya böyük bir mütəşəkkil dəstəni ifşa ediblər. Biz qaçaqmalçı kimi təqdim edib mətbuatda, efirdə biabır etdilər. Bütün bunlar yeganə məqsədə xidmət edirdi - bizdən pul qoparmaq. İndi də məlum olur ki, qızıl keçilər, ümumiyyətlə, cinayət işinin içində yoxdur. Yəni 2 qızıl keçini də işdən çıxarmaqla oğurlayıblar. Halbuki mən ölkədən çıxmamışdım ki, qaçaqmalçılıq da edim".

**"Təhsin Ağayev dedi ki, "sən bir qızıl balıqsan ki, düşmüsən torumuza", yarım milyon manat verməlisən"**

**Sahibkar Əhməd Mirzəyevin** sözlərinə görə, sonradan ondan 500 min dollar alıblar və 2015-ci ildə Prezidentin göstərişi ilə MTN-də əməliyyat keçirilən günə qədər də ondan əl çəkməyiblər. Sahibkar MTN tərəfindən qondarma ittihamla üzləşdiyini, qanunsuz olaraq məhkum edildiyini söyləyib. Əhməd Mirzəyev MTN-də başına gətirilən müsibətlərdən sonra həyatının alt-üst olduğunu, xəstəlik tapdığını da deyir. 2010-cu il martın 27-də MTN-ə çağırılan sahibkar oranı 21 gün sonra, çox ağır şərtlər altında tərk edə bilib: "Martın 27-si, Novruz bayramı tətili idi. Məni ora çağıranda hansısa anlaşılmazlıq olduğunu düşündüm. Orada bu gün tülkü kimi özünü xəstəliyə vuran Təhsin Ağayevin - MTN-in İstintaq Baş İdarəsinin rəis müavinin yanına apardılar. O, elə söhbət aparırdı ki, onun barəmdə xeyli məlumat topladığını başa düşdüm. Deyirdi ki, qaçaqmalçılıqla məşğulam, ona görə də yarım milyon manat verməliyəm. Çaşqın duruma düşmüşdüm. Anlamırdım ki, həmin pulu niyə verməliyəm, hansı qaçaqmalçılıqdan söhbət gedir. Ona dedim ki, özünüz də bilirsiniz ki, restoran biznesi ilə məşğul oluram. Mən qaçaqmalçı deyiləm. O qədər pulumun olmadığını onlara dedim. Həmin pulu niyə verməli olduğumu soruşdum. Cavab verdi ki, biznesin var, pulun var, verməlisən. Dedi ki, "sən bir qızıl balıqsan ki, düşmüsən torumuza". Obyektim haqda da məlumat verirdi. Başa düşürdüm ki, barəmdə məlumat yığıblar. Pulumun olmadığını deyirdim, Təhsin Ağayev isə deyirdi ki, pulu verməyəcəksən, buradan da çıxmayacaqsan! Ona dedim ki, axı mənim heç bir günahım yoxdur. Məni pula görə saxlamısızsa, xırda-para verim, əl çəkin. Təhsin Ağayev dedi ki, cənabın - yəni Eldar Mahmudovun göstərişidir, xırdaçılıq eləmə, işləyiriksə, adımıza layiq hesabla işləyək. Sonradan bildim ki, cənab dedikləri nazirləri Eldar Mahmudovdur".

**"Dedilər ki, sənin buradan çıxmağının bir yolu var: pul..."**

**Əhməd Mirzəyevin sözlərinə görə, onu həmin gün həbs ediblər:** "Elə həmin gün heç bir günahım olmaya-olmaya həbs edib aparıb istintaq təcridxanasına yerləşdirdilər. Dedilər ki, guya Zaur adlı bir keçmiş prokurorluq işçisi ilə qaçaqmalçılıq etmişəm, ölkəyə qədim əntiq əşyalar olan qızıldan keçi və qanadlı qoyun heykəlləri gətirmişəm. Gedib Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutundan qeydiyyatsız, tarixsiz, yəni saxta bir arayış alıblar. Guya həmin keçi ilə qanadlı qoyun, özlərinin dediyi kimi, əntiq əşyalardır. Həmin saxta arayışı əsas gətirib məni həbs etdilər. Onlara dedim ki, axı mən ölkədən heç yana getməmişəm, sərhəd keçməmişəm, necə qaçaqmalçılıq edə bilərəm? Dedilər ki, artıq suallar vermə, sənin buradan çıxmağının bir yolu var - pul verməlisən..."

**Əhməd Mirzəyev deyir ki, o, girovluqda olarkən, qardaşı vəkillə müqavilə bağlayıb:** "Vəkil yanıma gəldi, durumumu dedim. Ailəmə çatdırdı. Həmin günlərdə Təhsin Ağayev məndən pulu verib-verməyəcəyimi soruşurdu. Qardaşıma xəbər göndərmişdim ki, məndən 500 min manat tələb edirlər, verməsəm, buraxmayacaqlar. Ondan həmin məbləği düzəldib verməsini istəmişdim. 2 gün sonra vəkil gəlib dedi ki, pul düzəlmir. Bunu Təhsin Ağayevə dedim. Dedi ki, manatla verə bilmirsənsə, dollarla ver - yəni 500 min dollar tələb etdi. Mənə müstəntiq Elşən Murtuzovun xidməti otağında qardaşıma məktub yazdırdılar. Məktubda qardaşımdan 500 min dolları düzəldib verməsini xahiş edirdim. Lakin qardaşım həmin pulu düzəldə bilmirdi. Təhsin Ağayev bunu biləndə dedi ki, sənin Bakıda obyektin var, tapşıracağam, aparıb "Azəriqazbank"a girov qoysunlar. Mən həbsdə olanda iştirakım olmadan obyektim həmin bankda girov qoyuldu, pulu da götürdülər. Bundan sonra məni zaminə buraxdılar. Həyatımda ilk dəfə istintaqda gördüyüm hüquqşünas Zaur Əliyev isə həbsdə qaldı. Təhsin Ağayev dedi ki, hər ikinizi məhkəməyə göndərəcəyəm, barənizdə formal ittiham hökmü çıxacaq, amma özünüzü şərti verib azad edəcəklər".



**"Saxta, başdan-ayağa quraşdırma bir ittihama görə hakim 100 min manat tələb etdi"**

**Sahibkar deyir ki, 21 gün MTN-də saxlanıldıqdan sonra azad olunub. Aylar sonra isə iş Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib:** "Məhkəmədə də dedilər ki, oradan gələn ittihamlar təsdiqlənməlidir. Biz sənə ancaq şərti cəza verməklə kömək edə bilərik. Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi Əfqan Hacıyev dedi ki, 100 min manat verəcəksən, barəndə 5 il şərti cəza çıxarılacaq. Məhkəmədə bir ekspertiza rəyi ortaya çıxdı. Rəyi Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertiza Mərkəzi vermişdi. Rəydən belə aydın olurdu ki, MTN-də qədim əntiq əşya, tarixi əhəmiyyət kəsb edən eksponat kimi təqdim olunan keçi ilə qanadlı, buynuzlu qoyunun vur-tut üst-üstə 630 manat qiyməti var. Üstəlik, bir dekorativ baltanı da işə əlavə etmişdilər. Məlum oldu ki, həmin balta dekorativ əşya olduğundan qiymətləndirilməyiblər. Yəni qəpik-quruş dəyəri var. Bu cür saxta, başdan-ayağa quraşdırma bir ittihamla həbs olunmamağım üçün məhkəmə məndən 100 min manat tələb edirdi. Uzun söhbətlərdən sonra manatı dollara çevirib 100 min dollar aldılar. Saxta hökmlə mənə 5 il şərti cəza verib buraxdılar".

**Əhməd Mirzəyev deyib ki, Rusiyada qazandığı pulu bura gətirib ölkədə biznes qurub:** "Burada öz azərbaycanlılarıma iş yeri açıb vətəndə yaşayırdım. Bu adamlar mənim həyatımı qaraltdılar. İllərdir ki, banka borc ödəyirəm. Üstəlik, pulu alsalar da, mənə şərti cəza kəsdirsələr də, əl çəkmədilər. Düz 2015-ci ilin oktyabrında qədər Milli Təhlükəsizlik Nazirliyi İstintaq Baş İdarəsinin rəisi Mövlam Şıxəliyev məni təhdid etdi. Gah dedi kostyum al, gah dedi bağımı təmir elətdir, gah da dedi ki, qızıl "Vertu" telefon al gətir. 5 il evinə, ofislərinə, iş yerinə mənə "Slavyanka" suyu daşıtdırdı. Mən Prezident İlham Əliyevə güvənirəm. İş üzrə qanuni qərar qəbul olunmasını, barəmizdəki saxta hökmün ləğv edilib bizə bəraət verilməsini xahiş edirəm".

**❑ E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 109 (8245) 23 iyun 2023

# "Laçın blokadasını" yarmaq üçün Avropadan gəldi

## Avropa Parlamentinin Müdafiə və Təhlükəsizlik Komissiyasının rəhbəri Natali Luazo qatı ermənipərəst mövqeyi ilə seçilir

**Avropa İttifaqının Ermənistandakı müşahidə missiyasının rəhbəri Markus Ritter və Avropa Parlamentinin Müdafiə və Təhlükəsizlik Komissiyasının rəhbəri Natali Luazo Laçın dəhlizinə gedəcəklərini bəyan ediblər. Ritter və Aİ-nın Ermənistandakı səfiri Andrea Viktorin Luazo və onun nümayəndə heyətini Zəngəzur vilayətinin Qarakilsə şəhəri yaxınlığındakı hava limanında qarşılayıb.**

Onlar Aİ missiyasının müşahidəçiləri ilə birlikdə Laçın dəhlizi istiqamətindəki patrul missiyasına baş çəkəcəklər.

Qeyd edək ki, Natali Luazonun erməni canfəşanlığı onun Fransanın Avropa Parlamentindəki təmsilçisi olması ilə bağlıdır.(Cebhe.info)

Avropa Parlamentində erməni lobbisinin əsas nümayəndələrindən biri Luazo əvvəllər Fransa Xarici İşlər Nazirliyində mühüm postlarda çalışıb. 2019-cu ildə bu postu tərk edən Luazo Avropa Parlamentinə üzv seçilib.

Luazo Avropa Parlamentində Azərbaycanın əleyhinə kəskin bəyanatları və ermənilərin müdafiəçisi kimi etdiyi çıxışları ilə tanınıb. Bu dəfə də fransalı deputat yenidən ermənilərin harayına gəlib. O, İrəvanda Ermənistan rəhbərliyi ilə keçirdiyi görüşlərdə Laçın-Xankəndi yolunun bağlanması ilə əlaqədar yaranmış vəziyyəti müzakirə edib.

Ermənilərin sözçüsü sayılan Natali Luazonun təcili İrəvana səfəri də məhz bu məqsədə xidmət edir. Hətta Luazo erməniləri əmin etmək və vəziyyəti "yerində öyrənmək" üçün Laçın dəhlizinə, yəni Laçın şəhərindən yan keçməklə Xankəndi ilə Ermənistan arasında nəqliyyat əlaqəsini təmin edən yola səfər etmək iddiasına düşüb.

Amma Natali Luazo Laçın-Xankəndi yolunda vəziyyəti öyrənmək üçün həmin bölgəyə yalnız Azərbaycan ərazisindən keçib gedə bilər. Bundan başqa, o, səfərinin məqsədilə bağlı Azərbaycan Xarici İşlər Nazirliyinə, Azərbaycan Dövlət Sərhəd Xidmətinə və digər rəsmi orqanlara müraciət etməlidir.

Əgər Luazonun Avropa Parlamentinin üzvü kimi müşahidə aparmaq məqsədilə Laçın-Xankəndi yoluna səfər etməsinə icazə verilsə, bu halda o, xüsusi razılıq əsasında öz istəyini həyata keçirə bilər.

**Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəhbəri, beynəlxalq münasibətlər üzrə şərhçi Əziz Əlibəyli bu mövzuda çox maraqlı bir nüansa toxundu:** "Öncəliklə bu sualı verək. Natali Luazo kimdir? O bölgəyə gələndən sonra, yaxud gəlmə ərəfəsində bölgədə böyük qarşıdurma yaşanır, silahlar susmur. Məqsəd də məlumdur. Azərbaycan tərəfi üzərində bir neçə istiqamətdən təzyiq formalaşdırmağa çalışırlar. Bununla həm də Laçın yolunu açmağa nail olmaq istəyirlər. Eyni zamanda ekoloji məsələlər üzərindən də ölkəmizə qarşı təzyiqləri artırmağa cəhdlər olunur. Digər tərəfdən, nə qədər qəribə görünsə də, Natali Luazonun gəlişi ərəfəsində ekologiya sahəsində Söyüdlüdə böyük bir problemlər yaşandı. Burada bir maraqlı nüans da var ki, Söyüdlüdə olan qızıl mədənindən biri də Kəlbəcərdə var. Zod yataqlarını nəzərdə tuturam. Burada təbii ki, təsadüfi heç nə yoxdur. Azərbaycanda həmin mədəndən narazı qalan şəxslərin mütləq şəkildə hüquqları qorunmalıdır. Amma informasiya savaşında buraxılan səhv heç zaman kompensasiya edilmir. Sizlər də şahidsiniz ki, bizim ekologiya üzərindən, Qarabağdakı mədənlər üzərindən apardığımız siyasətə Gədəbəyin Söyüdlü kəndində baş verən hadisələr ciddi problemlər yarada bilər. Maraqlıdır ki, Natali Luazonun gündəliyində bu məsələ çox geniş yer tutdu. Natali Luazo nəinki ikili standartlardan çıxış edir, onun açıqlamaları birmənalı şəkildə Azərbaycan əleyhinədir. Bir dəfə fevral ayında qaldırdığı məsələdə Qarabağa jandarma göndərmək lazım olduğunu qeyd etdi. Sonrakı periodda da bu məsələni qaldırdı ki, Qarabağda Azərbaycan ermənilələri genosidə uğradır, biz mütləq ora hərbi silahlı qüvvələr yeritməliyik. Bu mövqeyi hər cür danışan adamdır. Onun adamlığından və siyasi kimliyindən daha çox mənsub olduğu komandaya baxın. Avropa İttifaqında bəlli bir çevrənin daşıyıcılarıdır. Bu şəxs anti-Azərbaycan mövqeyini Fransada sərgiləyən tanınmış simalardan biridir. Onlar həm Hindistan, həm də İranla birlikdə Azərbaycan əleyhinə kampaniya fəaliyyət aparan qrupa aiddir".


Twitter

**AMİP Mərkəzi Şurasının sədri, politoloq Rəşad Bayramov isə Luazonun zatən kimliyinin hər kəsə məlum olduğunu söylədi:** "Əvvəla onu qeyd edim ki, nə Avropa İttifaqının Ermənistandakı müşahidə missiyasının, nə də Avropa Parlamentinin Müdafiə və Təhlükəsizlik Komissiyasının, yəni daha konkret desək, Avropa institutlarının məqsədi heç də sərhəddə monitorinq aparmaq və ya iki ölkə arasında sabitlik yaratmaqdan ibarət deyil.

Avropa Parlamentinin Müdafiə və Təhlükəsizlik Komissiyasının rəhbəri Natali Luazoya gəldikdə isə onun kim olduğu, hansı dairələrin sifarişlərini yerinə yetirdiyi məlumdur. Fransadan Avropa Parlamentinə seçilən deputat kimi onun dəfələrlə Azərbaycan əleyhinə mövqe sərgilədiyinin şahidi olmuşuq. Hələ Fransa Xarici İşlər Nazirliyində işlədiyi dövrdən erməni lobbisi ilə kifayət qədər isti münasibətlər quran Luazo indi də həm onların, həm də hər addımda erməni maraqlarının müdafiəçisi qismində çıxış edən Fransanın rəsmi dairələrinin mövqeyini müdafiə edir. Odur ki, belə bir şəxsin bitərəf mövqe sərgiləməsini gözləmək özü sadəlövlük olardı.

Ermənistana səfəri çərçivəsində keçirdiyi mətbuat konfransında "mən Avropa Parlamentinin mövqeyini ifadə etmək istəyirəm" deyərək "Laçın dəhlizinin bağlanması qanunsuzdur və buna son qoyulmalıdır. Dağlıq Qarabağ ermənilərinin hüquqları və rifahı qorunmalı, Ermənistanın suverenliyinə və ərazi bütövlüyünə hörmət edilməlidir" bəyanatı ilə çıxış edən Luazo əslində təkcə elə bu bəyanatı ilə haralara xidmət etdiyini açıq şəkildə ortaya qoymuş olur.

Təbii ki, nə Avropa İttifaqı müşahidə missiyasının rəhbəri Markus Ritterin, nə də Avropa Parlamentinin Müdafiə və Təhlükəsizlik Komissiyasının rəhbəri Natali Luazonun Azərbaycan tərəfinin razılığı olmadan Laçın dəhlizinə daxil olaraq hər hansı monitorinq aparması mümkündür. Çox güman ki, onlar Ermənistan tərəfdən Azərbaycan-Ermənistan sərhədinə yaxın bir əraziyə qədər gələrək oradan müşahidə aparmaqla geri qayıdacaqlar. Amma bu halın özü belə onların bəyanatlarının birtərəfli informasiyalar əsasında verildiyinin sübutudur. Əgər belə olmasaydı, Avropa Parlamenti bu və ya digər bəyanatla çıxış etməzdən əvvəl hər iki tərəflə görüşlər keçirər və yalnız bundan sonra dəhlizin bağlanmasının qanunsuz olub-olmaması ilə bağlı bəyanat verərdi. Amma nə olur-olsun ermənilərin maraqlarını qorumağı qarşılarına məqsəd qoyduqları üçün ədalətin nədən ibarət olduğu onlar üçün əhəmiyyətli deyil.

Əslində isə kifayət qədər normal qaydada fəaliyyət göstərən və ermənilərin təhlükəsiz şəkildə giriş-çıxışını təmin edən sərhəd-buraxılış məntəqəsinin bağlanması məhz elə Luazonun canfəşanlıqla müdafiə etdiyi ermənilərin təhlükəsizliyinə xidmət edir. Belə ki, Azərbaycan sərhədçiləri və rus "sülhməramlı" kontingentinin əsgərlərini hədəfə alan erməni hərbi birləşmələrinin sabah daha böyük təxribatlar törədərək oradan keçən mülki əhalini də hədəfə almayacağına dair heç bir təminat yoxdur. İmzalanmış üçtərəfli bəyanata görə, Azərbaycan həmin yoldan erməni vətəndaşlarımızın sərbəst və təhlükəsiz gediş-gəlişinə zəmanət verib. Odur ki, indi də məhz bu mövqedən çıxış edərək onların təhlükəsizliyi istiqamətində addımlar atır".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# ABŞ Gürcüstanda inqilab hazırlayır?

**"ABŞ-ın Tiflisdəki səfiri Kelli Deqnan Gürcüstanda inqilabi hakimiyyət dəyişikliyi layihəsinin müəllifidir".**

Bunu Gürcüstan parlamentinin deputatı Dmitri Xundadze deyib. Deputatın partiyası daha əvvəl bəyanat yayaraq ABŞ səfirinin ölkədəki liberal-faşist təşkilatlarına rəğbət bəslədiyini bəyan edib.

"Qeyri-hökumət təşkilatları açıq şəkildə deyirlər ki, hakimiyyəti seçki yolu ilə dəyişmək mümkün deyil və bu məqsəə inqilabi yolla nail olmaq lazımdır. Hesab edirəm ki, iştirak artıq açıq şəkildə qeydə alınıb. ABŞ səfiri bu layihənin müəllifi kimi təqdim olunur", - deyə gürcü deputat vurğulayıb.

# Türkiyə daha 4 ölkəyə "Anka" PUA-ları satacaq

**Türkiyə 2023-cü ilin sonunadək 4 ölkəyə "Anka" pilotsuz uçuş aparatları (PUA) tədarük edəcək.**

Bu barədə "Anadolu" agentliyi PUA-ları istehsal edən TUSAŞ şirkətinin rəsmisinə istinadən məlumat yayıb.

Ölkələrin adları açıqlanmayıb. Bildirilib ki, növbəti il "Anka" müştərilərinin sayı daha da artacaq.

Xatırladaq ki, bundan əvvəl PUA-ların Afrika, Mərkəzi və Cənub-Şərqi Asiya ölkələrinə tədarük edilməsi barədə müqavilələr imzalanıb.

# Ukraynaya 1.5 milyard avroluq yardım

**Avropa İttifaqı Ukraynaya daha 1,5 milyard avroluq makromaliyyə yardımı köçürüb. Bunu Avropa Komissiyasının rəhbəri Ursula fon der Leyen yazıb.**

"Bu gün biz Ukraynaya daha 1.5 milyard avro makromaliyyə yardımı ödəyirik. Biz Ukraynanın azadlıq uğrunda cəsarətli mübarizəsində onun xidmətlərini və infrastrukturunu ayaqda saxlamağa kömək edirik", - deyə o qeyd edib.

Xatırladaq ki, ötən ilin 24 fevralında Rusiyanın Ukraynaya hücumu nəticəsində başlayan müharibə davam edir. Rusiya Ukraynanın Xerson və Zaporojye vilayətlərini, habelə qondarma "Donetsk XR" və "Luqansk XR" separatçı qurumlarını birtərəfli qaydada ilhaq etdiyini açıqlayıb.

YENİ MÜSAVAT
N 109 (8245) 23 iyun 2023

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi**

# Qərbin Azərbaycanda dinlə bağlı məkrli planlar - təfərrüat

## Aİ və ABŞ öz siyasətini həyata keçirmək üçün dindən alət kimi istifadə etmək istəyir

**ABŞ-ın NED (National Endowment for Democracy) təşkilatı 2022-ci ildə gizli maliyyələşmə sxemi üzrə üçüncü ölkələr və diplomatik missiyalar vasitəsilə Azərbaycan təşkilatlarına (əsasən QHT və media) 1 100 000 ABŞ dollarından bir qədər artıq qrant ayırıb. Bununla bağlı hüquq müdafiəçisi Sahib Məmmədov məlumat verib.**

Onun araşdırmasına görə, qrant bir çox istiqamətlərə yönəldiləcək: "Bunlar içərisində dini təriqətlərin inkişafı, orta məktəblərdə dinin tədrisinə nail olunması və ya müxtəlif təriqətlərə mənsub müəllimlərin hazırlanması kimi layihələr də yer alıb. Bir qayda olaraq NED tərəfindən maliyyələşdirilən layihələrdəndir. Xüsusən dini radikallığın artırılması, məktəblərdə dinin tədrisi kimi istiqamətlər üzrə ABŞ-ın dini azadlıqlar üzrə beynəlxalq komissiyasının Azərbaycanla bağlı planları var. Bəzən onun həyata keçirilməsində bəzi dövlət orqanları, rəhbər şəxslər də dəstəkləyici olaraq ya bilərəkdən, ya bilməyərəkdən iştirak edirlər. Bunlar çox ciddi, həssas məsələlərdir. Xüsusən çoxkonfessiyalı ölkələrdə bu təhlükəlidir. Ona görə də dövlətin bu sahədə repressiv yollarla gizli maliyyə axınlarının qarşısını alması mümkün deyil. Amma əks tədbirlər görə bilər. Burada daxili maliyyələşmə mexanizmləri təkmilləşdirilməlidir. Biz bununla bağlı dəfələrlə təkliflərimizi vermişik. Cəmiyyətin düzgün informasiyalara çıxışı təmin olunmalıdır".

Göründüyü kimi, ABŞ, Avropa Birliyi Azərbaycanda insanlar üzərində təsirini gücləndirmək, öz məkrli oyunlarını burada həyata keçirmək üçün dindən alət kimi istifadə etmək istəyir. Bunun qarşısını almaq üçün hansı addımlar atılmalıdır? Xüsusilə də aidiyyəti qurumların (DQİDK, QMİ) bu məsələdə rolu nədən ibarət olmalıdır?

**İlahiyyatçı Rəsul Mirhəşimli mövzu ilə bağlı "Yeni Müsavat"a deyib ki, dini düşüncə və əqidə o qədər həssas məsələdir ki, bunda hansısa xarici dövlətin yardımlarına etibar etmək olmaz**: "Əgər ABŞ-ın hansısa fondu Azərbaycanda dini məsələlərə qrantlar ayırırsa, mütləq bu işin içərisində hansısa gizli siyasət və kəşfiyyat planları var. 2000-ci illərin əvvəlində "Soros" Fondunun maliyyələşdirdiyi bir qrant layihəsi üzrə keçirilən tədbirə dəvət almışdıq. Həmin tədbirdə "Soros" Fondunun tərtib etdiyi suallar sırf kəşfiyyat məlumatları üzərində qurulmuşdu. "Bakıda hansı məscidə daha çox inanclı insanlar toplanır?", "Hansı məsciddə hansı məzhəbin nümayəndələri namaz qılır?" və sairə bu kimi suallar hansı bəd niyyətin ortaya qoyulmasından xəbər verirdi. Təbii olaraq, tədbirə dəvət olunan ilahiyyatçılar bu suallara kəskin etirazını bildirdi və həmin sualları cavablandırmaqdan imtina etdilər.



Bir zamanlar dinlərarası dialoq adı altında bir çox layihələrin maliyyələşdirilməsi halları müşahidə olunurdu. ABŞ və Qərb fondları, xüsusilə də Corc Soros, türk cümhuriyyətlərində bu layihələrə milyardlarla dollar vəsaitlər ayırırdı. Bir zamanlar "mülayim İslam" adı altında təhlükəli missiya da ortaya çıxmışdı. Sonra da məlum oldu ki, bu layihələr Qərbin xüsusi xidmət orqanlarının işləyib hazırladığı və FETÖ-nün təbliğat vasitələrinə çevrilmiş məqsədli siyasətin tərkib hissəsidir. Əgər bu tipli fondlar Azərbaycanda gizli şəkildə dinlə bağlı nəyisə maliyyələşdirirsə, bu, xoş niyyətlərdən xəbər vermir. Əslində Azərbaycanda dini baxımdan hansısa xarici fondların maliyyəsinə ehtiyac da yoxdur. Ölkədə dini konfessiyalar arasında çox müsbət münasibətlər dünyanın bir çox ölkəsinə nümunə olacaq səviyyədədir".

**Ekspert yada salıb ki, bir neçə il öncə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı ali məktəblərdə dinin tədris olunması ilə bağlı təkliflə çıxış etmişdi**: "Məncə, bu işin praktik həllinə nail olmağın zamanı çatıb. Bundan əlavə, ölkədə Mənəvi Dəyərlərin Təbliği Fondu vasitəsilə bir çox işlərin həyata keçirilməsinə nail olmaq mümkündür. Bu fond Azərbaycanda dini dəyərlərin təbliğində çox işlər görür. Fondun maliyyə vəsaitlərini artırmaqla xaricdən gələn istənilən bəd niyyətli missiyanı geri çevirmək mümkündür. Onu da qeyd edim ki, xarici fondlar təriqətlərə deyil, məzhəblərə istiqamətlənmiş maliyyə vəsaitlərini ortaya qoyur. Əgər xarici fondun hədəfində məzhəb anlayışı varsa, əmin olun, bu hədəf ədavət toxumunun səpilməsinə yönəlir. Təriqət və məzhəb anlayışı cəmiyyətimizin bəzi üzvləri tərəfindən bir çox hallarda qarışdırılır və bunların yerini yanlış təqdim edirlər. Bu baxımdan, bəzi zəruri izahatlara ehtiyac duyulur.

Məzhəb etiqatda, ibadətlərdə və hüquqda dini əmrlərə istinad edən, həmçinin bəzi əlavələr və rəylər, müqayisələr və fikirləri mövcud olan bir sistemdir. Əslində təriqət də etiqad, ibadət və hüquqda başqa hansısa bir sistemə sahib deyil. Təriqət qulu Allaha qovuşduran, zövq, nəşə və irfan yoludur. Sufilərə görə, bu yolu tutan adam varlığını Allaha təslim edər, hər şeydə Onun qüdrət və hikmətini görər. Tutduğu yola görə öz müvəqqəti varlığını hər zaman var olan Allahda yox edər. Sufilər hesab edir ki, hər şey Allahdan gəlir və sonda Ona dönəcək. Bir sözlə, şəriət elm yoludur, təriqət isə irfan, yəni insanın ruhi və mənəvi dünyagörüşü ilə bağlı yoldur".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Afaq MİRAYİQ

# İrandakı edam kötükləri BMT-nin hesabatında

## Məhbuslara işgəncə verilir, edam sayı əhəmiyyətli dərəcədə artıb...

**Ötən il sentyabrın 17-dən, etirazlar başlayandan İranda insan hüquqlarının qorunması sahəsində vəziyyət ciddi şəkildə pisləşib. Bunu BMT-nin İnsan Hüquqları üzrə ali komissarının müavini Neda Əl-Naşif BMT-nin İnsan Haqları Şurasına təqdim etdiyi hesabatda yazıb.**

Onun sözlərinə görə, ötən il İranda etirazlar başlayandan bəri insan hüquqlarına hörmət kəskin şəkildə aşağı düşüb: "Məhbuslara işgəncə verilir, edam sayı əhəmiyyətli dərəcədə artıb. Bunlar ciddi narahatlıq yaradır".

Komissarın müavini bildirib ki, İranın Sistan-Bəlucistan əyalətində aksiyalar zamanı 10-u qız olmaqla 44 uşaq öldürülüb: "Bu etirazlarda 20000 yaxın insan həbs edilib".

**BMT rəsmisi vurğulayıb ki, təhlükəsizlik qüvvələri etiraflar almaq üçün məhbuslara, xüsusən də həbsxanada kişilərə və uşaqlara işgəncə verib, pis rəftar ediblər**: "Habelə qadınlara qarşı cinsi zorakılıq hərəkətləri olub".

Neda əl-Naşif İran həbsxanalarındakı pis şəraitdən, xüsusən də həbsxanalarda tibbi xidmət göstərməkdən imtina edilməsindən, sağlamlığın pis olmasından, içməli suyun çirklənməsindən və məhbusların həddən artıq sıxlığından narahatlıq ifadə edib.

**İranda edamların sayının əhəmiyyətli dərəcədə artması ilə bağlı ciddi narahatlığını ifadə edən ali komissarın müavini bildirib ki, 2022-ci ildə İranda 582 nəfər edam edilib**: "Bu da əvvəlki illə müqayisədə 75 faiz çoxdur. Edam olunanlardan 3-ü uşaqdır, 256 nəfər isə narkotiklə bağlı həbs edilənlərdir".



**Hesabatda qız məktəblərinə kimyəvi hücumlarla bağlı qeyd olunub ki, martın 11-dən bəri 20 əyalətdə 91 məktəbdə şübhəli zəhərlənmə nəticəsində əksəriyyəti qızlar olmaqla mindən çox şagird zəhərlənib**: "İran rəsmiləri bu hadisələrə demək olar ki, əsaslı açıqlama verməyib. Onların verdikləri izahat isə ziddiyyətlidir".

İranın BMT-nin Cenevrədəki mənzil-qərargahındakı daimi nümayəndəsi Əli Bəhreyni bu hesabatda vurğulanan iradları rədd edərək, onu "tamamilə etibarsız" adlandırıb.

Xatırladaq ki, İranın məhkəmə sistemi indiyədək 7 etirazçını edam edib, Məhəmməd Kabadlunun ölüm hökmünü qüvvədə saxlayıb.

"Amnesty İnternational" isə əlavə edib ki, həbs olunan etirazçıların çoxunu ölüm cəzası gözləyir.

Qeyd edək ki, ötən həftə İran məhkəmə sisteminin sədri, ETTELAAT-ın keçmiş rəhbəri Qulamhüseyn Möhsünü-Ejei edamların davam edəcəyini bildirmişdi.

Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan Qurban bayramı ərəfəsində minə yaxın insanı əfv edib.

Bu barədə BƏƏ-nin WAM xəbər agentliyi məlumat yayıb. Prezident ölkənin islah və penitensiar müəssisələrindən 988 məhbusun azadlığa buraxılması barədə göstəriş verib.

Xatırladaq ki, Qurban bayramı iyunun 28-29-da qeyd olunacaq.

YENİ MÜSAVAT
N 109 (8245) 23 iyun 2023

# Ərzaqla təminatda idxaldan asılılıq əsassız bahalaşmaya haqq qazandırır?

## Ötən illə müqayisədə əsas ərzaq məhsullarının idxal qiyməti ucuzlaşıb, amma bu, bazarda hiss olunmur

**Azərbaycanın ərzaq məhsulları idxalına çəkdiyi xərc ildən-ilə artır. Gömrük statistikasına görə, bu ilin yanvar-may aylarında Azərbaycana idxal olunan yeyinti məhsullarının dəyəri 1 milyard manata yaxın - 921 969.26 min ABŞ dollarına bərabər olub. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 46 milyon 902 min dollar və ya 5,3 faiz çoxdur.**

Beş ayda həmçinin ölkəyə 28 milyon 623.17 min dollarlıq diri heyvan idxal olunub. Bu isə əvvəlki illə müqayisədə 9 milyon 910.79 min dollar və ya 53 faiz artım deməkdir.

Bu ilin yanvar-mayında Azərbaycana 134,9 milyon dollar dəyərlə 450 min 152.65 ton buğda idxal olunub. Ötən ilə nisbətən buğda idxalı həcm ifadəsində 94 min 527,59 ton və ya 26,6 faiz, dəyər ifadəsində isə 10 milyon 854,64 min dollar və ya 8,7 faiz artıb. Bir tonun idxal dəyərini hesabladıqda aydın olur ki, ötən ilin beş ayında buğdanın bir tonunu 348,8 dollara, bu ilin eyni dövründə isə 299,7 dollara idxal etmişik.

Ötən il ətin 1 tonunu 1741 dollara, kərə yağı və süddən hazırlanmış digər yağları 5560 dollara, bitki və heyvan mənşəli piylər və yağları 1632 dollara idxal etmişik. Bu il isə həmin məhsulları müvafiq olaraq 1842 dollara, 5519 dollara, 1378 dollara gətirmişik. Göründüyü kimi, ətdən başqa Azərbaycan əhalisinin qida rasionunda mühüm yer tutan digər 3 məhsulun hamısınını idxal qiymətində ötən ilə nisbətən ciddi ucuzlaşma var.

Bu da təbiidir, çünki həmin məhsulların qlobal bazar qiymətlərində ucuzlaşma bir ildir davam edir. BMT Kənd Təsərrüfatı və Ərzaq Təşkilatının (FAO) məlumatına əsasən, may ayında qlobal ərzaq qiymətləri indeksi aprellə müqayisədə 3,4 bənd və ya 2,6 faiz azalmaqla 124,3 bəndə bərabər olub. Bu, ötən ilin eyni dövrünə nəzərən 35,4 bənd və ya 22,1 faiz azalma deməkdir.

May ayında qlobal bazarlarda bitki yağlarının, taxıl və süd məhsullarının qiyməti azalıb, şəkər və ət məhsullarının qiyməti isə bahalaşıb. Belə ki, taxıl məhsullarının qiymət indeksi aprellə müqayisədə 6,5 bənd və ya 4,8 faiz azalaraq 129,7 bənd təşkil edib. Bu, ötən ilin rekord göstəricisindən 43,9 bənd aşağıdır. Mayda buğda qiymətləri aprelə nəzərən 3,5 faiz, qarğıdalı 9,8 faiz ucuzlaşıb.

118,7 bənd olan bitki yağları qiymətlərində bir ayda 11,3 bənd və ya 8,7 faiz azalma olub. Bu, 2022-ci ilin analoji dövründəkindən 48,2 faiz aşağı deməkdir.

Süd məhsullarında aylıq azalma 3,9 bənd və ya 3,2 faiz təşkil edib.

Ət məhsulları qiymət indeksi mayda əvvəlki ayla müqayisədə 1,1 bənd və ya 1 faiz artıb. Şəkər qiymətləri indeksində isə 8,2 bənd və ya 5,5 faizlik artım qeydə alınıb.

Qlobal bazarlardakı bu prosesin yalnız artım istiqamətləri Azərbaycan bazarında hiss olunmaqdadır: ət qiymətlərində hər kiloqramda 0,5-1 manata yaxın artım var. Şəkər məhsullarında isə artım daha böyükdür: 1 kq konfetdə 2 manatdan yuxarıdır. Şəkər tozu isə həm 1 kiloqramda 20 qəpikdən çox bahalaşıb, həm də qıtlığı yaranıb.

Buğdanın, maye yağların, süd məhsullarının qiymətində bir ildən yuxarıdır davam edən ucuzlaşma hələ də Azərbaycan bazarında əksini tapmayıb. Lakin 1 aydır şəkərin qiymətlərində müşahidə olunan bahalaşma dərhal bazarlarımızda əks olunub. Normal məntiqlə götürdükdə, əgər daxildəki qiymətlər həqiqətən xarici bazarlardan asılıdırsa, ona uyğun da dəyişməlidir. Necə ki, əksər ölkələrdə dəyişir: kiçik istisnalarla, bütün dünyada inflyasiyanın azalması gedir və əhali bunu öz alış-verişində açıq hiss edir.

ABŞ-dan tutmuş Avropa İttifaqı, hətta ən ağır sanksiyalar altında olan Rusiyada belə qiymətlərin ucuzlaşması müşahidə olunur və bu, pərakəndə ticarət şəbəkələrindəki qiymətlərə də yansıyır.



Azərbaycanda isə Dövlət Statistika Komitəsinin məlumatından aydın olur ki, 2023-cü ilin yanvar-may aylarında istehlak qiymətləri indeksi 2022-ci ilin yanvar-may aylarına nisbətən 13,1 faiz, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 15,8 faiz, qeyri-ərzaq məhsulları üzrə 11,6 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 10,6 bahalaşıb.

Qida məhsulları əvvəlki ilin eyni dövrünə nəzərən may ayında 13,1 faiz, yanvar-may aylarında isə 16,3 faiz bahalaşıb.

Yanvar-mayda ölkənin pərakəndə ticarət şəbəkələrindən həyata keçirilən satışların həcmi 20 milyard 769,5 milyon manat olub ki, bunun da 52,9 faizi ərzaq məhsullarının payıdır. Ötən illə müqayisədə ölkədə ərzaq məhsulları üzrə inflyasiya 16,3 faiz olduğu halda, əhalinin ərzaq məhsullarına xərclədiyi vəsaitin həcmində cəmi 2,2 faizlik artım baş verib. Bu isə o deməkdir ki, inflyasiya əhalinin alıcılıq qabiliyyətini yalnız ərzaq məhsulları üzrə 14 faizədək aşağı salıb.

Azərbaycan əhalisinin qida rasionunda mühüm yer tutan buğda ilə bağlı proseslər xüsusilə diqqəti cəlb edir. Belə ki, bu məhsulun ölkədə istehsalı ildən-ilə azalır. Ötən il Azərbaycanda buğda istehsalı azalaraq 1 milyon 736 min ton təşkil edib. 2021-ci ildə bu rəqəm 1 milyon 885 min ton olmuşdu. Bu isə ötən il Azərbaycanda buğda istehsalında 149 min ton və ya 8 faizə yaxın azalmanın baş verdiyini göstərir.

Rəsmi statistikaya əsasən, Azərbaycanda 2023-cü ilin məhsulu üçün 1064,1 min hektar sahədə dən üçün payızlıq bitkilər səpilib ki, bunun da 664,0 min hektarını buğda, 400,0 min hektarını arpa və 0,1 min hektarını çovdar təşkil edib. Xatırladaq ki, 2022-ci ilin məhsulu üçün 1015,9 min hektar sahədə dən üçün payızlıq bitkilər səpilmişdi ki, bunun da 602,1 min hektarı buğda, 413,6 min hektarı arpa və 0,2 min hektarı çovdar əkinləri idi. Göründüyü kimi, payızlıq dənli bitki əkinlərinin sahəsi 48,2 min hektar artırılıb. Bu zaman buğda əkinləri 61,9 min hektar artırılıb, arpa 13,6 min hektar, çovdar isə 0,1 min hektar azaldılıb.

2022-ci ildə ölkə xaricdən 1 milyon 292,996 min ton buğda idxal edilib ki, bu da 2021-ci ildəki idxaldan 12,6 faiz çoxdur. Bu idxal ölkəyə 436 milyon 551,2 min dollara (artım 31,5 faiz) başa gəlib. Bu isə 2022-ci ildə buğdanın tonunun idxalına 337,6 dollar xərc çəkildiyi deməkdir.

Ötənilki buğda idxalında əsas müsbət məqam alış bazarlarındakı diversifikasiyadır. Belə ki, Azərbaycan 2022-ci ildə Qazaxıstandan 95 milyon 800,45 min dəyərində 280,016 min ton buğda idxal edib ki, bu da 2021-ci ildəkindən 5,3 dəfə çoxdur. Qazaxıstan buğdasının bir tonu Azərbaycana orta hesabla 342,12 dollara başa gəlib.

Hesabat dövründə Rusiyadan buğda idxalında həcm ifadəsində 7,9 faiz azalma baş verib. Şimal qonşudan 1 milyon 8,061 min ton buğda alınıb. Lakin Rusiya məhsuluna ödənilən məbləğ 17 faiz artmaqla 337 milyon 491,94 min dollara çatıb. Nəticədə bir ton Rusiya buğdası üçün Azərbaycan 334,79 dollar ödəyib.

Ötən ilin yekununda Azərbaycana buğda idxalının 78 faizi Rusiyanın, 22 faizi Qazaxıstanın payına düşüb. Qazaxıstan buğdası bir qədər baha başa gəlsə də, ölkənin buğda kimi strateji məhsulun idxalında tamamilə Rusiyaya möhtac olmaması baxımından müsbət haldır.

Payızlıq taxıl əkinlərində artım olsa da, yazlıq əkinlərdə ciddi azalma var. Belə ki, 2023-cü ilin yanvar-may aylarında 341,8 min hektar sahədə və ya 2022-ci ilin eyni dövrü ilə müqayisədə 10,7 faiz az yazlıq bitkilərin səpini aparılıb. Bu dövrdə 59,0 min hektar sahədə dənlilər və dənli paxlalı bitkilər (ondan 28,7 min hektarı dən üçün qarğıdalı), 49,0 min hektar sahədə kartof, 59,3 min hektar sahədə tərəvəz, 16,9 min hektar sahədə bostan bitkiləri, 10,0 min hektar sahədə dən üçün günəbaxan, 4,5 min hektar sahədə şəkər çuğunduru və sair əkilib. Ötən illə müqayisədə yazlıq buğda əkinlərində 27,9 faiz, qarğıdalı əkinlərində 3,5 faiz, kartofda 10.4 faiz, tərəvəzdə 7,3 faiz, bostan bitkilərində 15,4 faiz azalma var.

Rəsmi statistika cari ilin beş ayında Azərbaycanda kənd təsərrüfatı məhsulları istehsalında artım olduğunu deyir. Komitənin açıqladığı məlumatdan aydın olur ki, 2023-cü ilin yanvar-may aylarında kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 3 milyard 116,0 milyon manat təşkil edib ki, onun da 2 milyard 372,3 milyon manatı heyvandarlıq, 743,7 milyon manatı bitkiçilik məhsullarının payına düşür. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatının istehsalı 5,2 faiz, o cümlədən heyvandarlıq məhsulları üzrə 3,5 faiz, bitkiçilik məhsulları üzrə 10,9 faiz artıb.

2023-cü ilin yanvar-may aylarında quş əti də daxil olmaqla diri çəkidə 226,9 min ton ət, 909,5 min ton süd, 918,6 milyon ədəd yumurta istehsal olunub. 2022-ci ilin müvafiq dövrünə nisbətən ət istehsalı 3,1 faiz, süd istehsalı 2,1 faiz, yumurta istehsalı 11,4 faiz artıb.

Kənd təsərrüfatı məhsullarının istehsalındakı artıma baxmayaraq, ölkə ərzaq məhsulları ilə təminatda böyük ölçüdə idxaldan asılı olaraq qalır. Təəssüflər olsun ki, idxal olunan məhsulların daxili bazar qiymətlərindəki dəyişikliklərə antimonopolizm siyasəti baxımından effektiv nəzarət olmadığına görə Azərbaycan əhalisi ərzaq məhsullarının daim bahalaşması ilə üzləşir...

**❑ Dünya SAKİT, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
Son səhifə
N 109 (8245) 23 iyun 2023
iyun

## Bunları bilirsinizmi?

* Döş qəfəsindən çıxarılan insan ürəyi qısa müddət döyünə bilir. Çünki onun özünün xüsusi elektrik sistemi var və ətraf mühitdən elektrik ala bilir.
* Mədə turşusu o qədər güclüdür ki, bədən hər 3-4 günə tamamilə yeni selikli qişa yaranır.
* İnsan burnu 50 min qoxunu ayırıb yadda saxlaya bilər.
* İnsan saatda 160 km sürətlə asqırır. Bəlkə də daha çox.
* Qan damarlarının ümumi uzunluğu 96 min kilometrdir. Bu da ekvator xəttini iki dəfədən artıq fırlanmağa bərabərdir.
* İnsan bədəni gündə yük maşınının 32 km məsafə qət edə biləcəyi qədər enerji istehsal edir.
* İnsan gözü o qədər həssasdır ki, aydın gecədə səmaya baxsa Andromeda görmək olar. Yəni gözlər ən bizə yaxın və 2,5 milyon işıq ili uzaqda yerləşən qalaktikada zəif rəngli ləkələri ayırd edə bilər.
* İnsan xoruldayan zaman 80 destibel gücündə səs çıxarır. 85 destibeldən yuxarı səsə insan sağlamlığı üçün təhlükəlidir.
* Heyronlar saatda 240 kilometr sürətlə siqanl ötürürlər.
* İnsanın ürək ritmləri və mimikası qulaq asdığı musiqidən asılı olaraq dəyişir.
* Yatmayanda insan beyni bir lampa üçün kifayət edəcək qədər elektrik enerjisi istehsal edə bilər.
* İnsan sümüyü poladdan möhkəmdir. Belə möhkəmliyə baxmayaraq sümüklərin 31 faizi sudan ibarətdir.

# Məşhur dərmanın yaşlıların qanını azaltdığı ortaya çıxdı



**Avstraliyanın Monaş Universitetinin mütəxəssislər qrupu aspirinin yaşlılar üçün təhlükələrini müəyyən edib. Məlum olub ki, dərman anemiya riskini 20 faiz artırır. Tədqiqatın nəticələri "Annals of Internal Medicine" jurnalında dərc olunub.**

Araşdırma zamanı müəlliflər 70 və daha yuxarı yaşda olan 20 000-ə yaxın insanın məlumatlarını öyrəniblər. İştirakçılar iki qrupa bölünüb, onlara üç il ərzində gündəlik 100 milliqram aspirin və ya plaseb o qəbul etmələri təyin edilib. İştirakçıların hər il hemoqlobini yoxlanılıb, həmçinin qanlarında dərman qəbul etməzdən əvvəl və üç il sonra - ferritin (dəmir) ölçülüb.

Tədqiqatçılar müəyyən ediblər ki, hər gün aşağı dozada aspirin qəbul edən qrupun anemiyaya tutulma riski plasebo qrupuna nisbətən 23,5 faiz yüksəkdir. Bundan əlavə, onların hemoqlobin səviyyəsində bir qədər, ferritinin konsentrasiyasında isə əhəmiyyətli miqdarda azalma görünüb.

Əldə edilən məlumatlar göstərir ki, aspirin qəbul edən yaşlı xəstələrdə hemoqlobin səviyyəsinin dövri monitorinqi aparılmalıdır.

## Varlılar üçün dünyanın ən bahalı 10 şəhərinin adı açıqlandı



**Varlılar üçün dünyanın ən bahalı 10 şəhərinin adı açıqlanıb. Bu barədə İsveçrənin "Julius Baer" özəl bankının 2023-cü il üzrə dərc etdiyi "Qlobal zənginlik və həyat tərzi" hesabatında məlumat verilib. Mərkəzi ofisi İsveçrədə yerləşən "Julius Baer" özəl bankı yaşayış yerləri, avtomobillər, biznes-klass uçuşları, məktəblər, qidalanma və digər üstün amilləri təhlil edib və varlılar üçün dünyanın ən bahalı şəhərlərini müəyyən edib.**

Sıralamaya görə, Sinqapur 2023-cü ildə dəbdəbəli yaşayış üçün ən bahalı şəhər hesab edilib. Ötən il beşinci yerdə olan Sinqapur bu il Şanxayı zirvədən endirib. "Julius Baer" analitiklərinin məlumatına görə, 5,5 milyon əhalisi olan Sinqapur şəhər dövlətində 1500 ailə şirkəti fəaliyyət göstərir və bu rəqəm əvvəlki illə müqayisədə iki dəfə artıb. Sinqapurun investorları cəlb etməkdə uğur əldə etdiyi, lakin bunun qiymətlərin artmasına səbəb olduğu qeyd edilib. Həmçinin Sinqapurun dünyada ən yüksək avtomobil qiymətlərinə sahib olduğu da vurğulanıb.

Kirayə və məktəb haqlarının, eləcə də nəqliyyat vasitəsi vergilərinin yüksək olduğu Sinqapurda tibbi sığorta qiymətləri də qlobal orta göstəricidən yüksəkdir. Sinqapurda adambaşına düşən ÜDM-in də ən yüksək göstərici olduğu deyilib. "Uzun müddətdir yaşanıla bilən, sabit və kosmopolit hesab edilən Sinqapur indi varlılar üçün aparıcı qlobal mərkəzə çevrilmək yolundadır", - deyə analitiklər bildiriblər. Beləliklə, "Julius Baerin" "Varlılar üçün yaxşı həyat"ın olduğu 10 şəhər siyahısında Sinqapurdan sonra Şanxay, Honkonq, London, Nyu-York, Monako, Dubay, Taypey, San-Paulo və Mayami şəhərləri yer alıb.

## Süni intellektin köməyi ilə ölmüş insanlarla "söhbət" mümkün oldu



**ABŞ-ın "Meta" şirkəti səs faylları əsasında həm canlı, həm də ölü insanların səslərini təkrarlaya bilən generativ süni intellektin yeni modelini işləyib. Qeyd edilir ki, "Voicebox" adlı süni intellekt modeli altı dildə danışa bilir. "Meta"da bu tərtibatı "generativ süni intellekt sahəsində nitqlə bağlı sıçrayış" adlandırılıb.**

Süni intellekt insan səsini həm də xarici dillərdə təqlid edə biləcək. Şirkətdən verilən məlumata görə, bu, filmlərin dublyajına, həmçinin internetdə məzmun yaradıcılarına videoları başqa dillərə tərcümə etməyə imkan verəcək. Tərtibatçılar texnologiyanın potensial risklərini əsas gətirərək modelə ictimai girişi bağlamaq qərarına gəldiklərini əlavə ediblər.

"Generativ nitq modelləri üçün bir çox maraqlı istifadə halları var, lakin potensial sui-istifadə risklərinə görə biz hazırda "Voicebox" modelini və ya kodunu dərc etmirik", - deyə şirkət sözçüsü bildirib.

## Avropada makaron alışı dayandırıldı, Fransa hökuməti şirkətləri hədələdi



**İtaliya sakinləri qiymətlərin davamlı artması səbəbindən avropalıları "makaron tətili"nə çağırıblar. Onlar bu məhsulu almağı dayandırmağı, mətbəxlərində özləri makaron hazırlamağa başlamağı planlaşdırırlar.**

Fransada da sakinlər də bu vəziyyətdən narazıdırlar. Rəsmi Paris istehsalçılara xərclərin aşağı salınmayacağı təqdirdə makaron fabriklərinə qarşı müvafiq sanksiyaların tətbiq ediləcəyi ilə bağlı xəbərdarlıq edib. Qeyd edək ki, buğdanın dəyərinin əhəmiyyətli dərəcədə aşağı düşməsinə baxmayaraq, Avropada makaron qiymətləri artmaqda davam edir. İndiyə qədər makaronun qiyməti iki dəfə artıb. Analitiklərin fikrincə, yerli əhalinin makaron məhsullarının əsas istehlakçısı olduğu İtaliyada (ölkədə adambaşına ildə təxminən 23 kiloqram makaron istehlak olunur) may ayında qiymətlər bir il əvvəllə müqayisədə 14% baha olub. Böyük Britaniyada qiymətlər illik 27,6%, Almaniyada 21,8%, Fransada isə 21,4% artıb.

Hazırda Avropa vətəndaşları bu məhsulu almaqdan imtina edirlər.

## Öz xəyanətindən bezən amerikalı kişi dörd arvad aldı



**Həyatı boyu sevgililərini aldadan amerikalı bundan bezərək dörd arvad alıb. Bu barədə Alabamadan olan gəncin özü danışıb. Jerom yeniyetməlik illərindən bir münasibətlə kifayətlənmədiyini və daim əlavə sevgililəri olduğunu etiraf edib. Bu səbəbdən bir çox qadını incitdiyini deyən amerikalı 5 il əvvəl bundan bezərək öz xəyanətlərinə son qoymaq qərarına gəldiyini bildirib.**

Onun sözlərinə görə, hər şey Jasmin adlı qadınla tanış olduqdan sonra başlayıb. Jeromun ona da xəyanətindən sonra ayrılan cütlük bir müddət sonra barışıb. Sevgililər münasibətləri aydınlaşdıran və problemin müzakirəsindən sonra polamor münasibətə razılaşırlar. Jasminin yeganə şərti kişinin yeni arvad seçimini özünün təsdiqləməsi olub.

Bir müddət sonra onların həyatına Ceja, ardınca Jasminin adaşı (onu balaca Jasmin çağırırlar) və Ti adlı qadınlar qoşulur. Jerom və arvadları cəmiyyətdə tez-tez tənqid eşitsələr də, onlar buna məhəl qoymamağa çalışırlar. Bundan əlavə, böyük Jasmin çoxarvadlılığın insanın həyatını asanlaşdırdığını deyib.

"Biri mətbəxi təmizləyə, digəri yemək bişirə, üçüncüsü uşaqlarla məşğul ola bilər", - deyə o bildirib. Jerom bildirib ki, böyük ailə sayəsində o, artıq qadınlarını aldatmır.

## Türkiyədə qadın corablarının içindən 32 ilan balası çıxdı



**Türkiyədə gömrük qrupları Edirne Kapıkule Sərhəd Qapısından Türkiyəyə daxil olan yük maşınına baxış keçirib. Almaniyadan gələn yük maşınının gömrük rəsmiləşdirilməsi prosedurlarından sonra sürücünün narahatlığı diqqət çəkib və maşın ətraflı şəkildə yoxlanılıb. Yoxlama zamanı maşının qoşqu hissəsində tapılan parça çantada qara rəngdə nazik qadın corablarının içinə salınmış 32 canlı piton ilanının balası aşkarlanıb. Keyləşdirilmiş ilan balalarından dördü ölü olub.**

Sürücü və yanındakı şəxs saxlanılıb.

**Səhifəni hazırladı: SELCAN**

Redaktor:
Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Sifariş: 1610
Lisenziya N: B 114
SAYI: 1.500